www.musavat.com
YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 iyul 2024-cü il Cümə axşamı № 129 (8502) Qiymәti 60 qәpik

Xəbər

## Övlad qatili atalar - qəddarlaşmanın səbəbi

yazısı səh.10-da

# MƏLEYKƏ ABBASZADƏYƏ ETİMADIN SİRRİ - DİM-DƏ YENƏ BİRİNCİ OLDU

Dövlət İmtahan Mərkəzində 5 üzvdən ibarət Müşahidə Şurası yaradıldı, yeni iki müavin təyin edildi - əsas rəhbərlik isə yenə ona tapşırıldı




yazısı səh.5-də

## Pul qazanmaq üçün namizəd olanlar - adları açıqlanacaq

Seçkiyə qatılan partiya sədrləri: "Dələduzlar hər yerdə var"

yazısı səh.9-da

Gündəm

### Paşinyan COP29-a görə Bakıya gələndə... - sensasion iddialar



Noyabrda Azərbaycan paytaxtında çərçivə sazişi imzalana bilər

yazısı səh.4-də

### Prezident Zəfər parkında

yazısı səh.6-da

### Avropa Sülh Fondu müharibə sponsoru rolunda

yazısı səh.7-də

### Rusiyada bloklanmış Azərbaycan saytları nə vaxt açılacaq?

yazısı səh.5-də

### Avropa İttifaqı "erməni qullar"a viza verir

yazısı səh.7-də

### Ermənistan müstəqilliyini belə itirir: güc nazirləri ABŞ-ın nəzarətində

yazısı səh.8-də

### Taksi qiymətləri ucuzlaşacaq

yazısı səh.10-da

### Kennedinin prezident vədləri: "Bakıya qarşı sanksiya..."

yazısı səh.11-də

### "Le Figaro"nun növbəti qərəzi

yazısı səh.13-də

### Ölkədən valyuta çıxarılması yasaqlanır?

yazısı səh.2-də

### Pezeşkianın inaqurasiyasına Azərbaycandan kim gedəcək?

yazısı səh.13-də

### Gənclərə maşın sükanı etibar etmək olar?

yazısı səh.15-də



Rəşad Həsənov

### Qiymətli kağızlar bazarı: kim satır, kimlər alır və niyə?

yazısı səh.12-də



### Ağadadaş Ağayev fəxri adını itirə bilər

yazısı səh.3-də



### Ziya Bünyadov cinayətinin üstü tam açılmayıb?

yazısı səh.3-də

# Ölkədən valyuta çıxarılması yasaqlanır?



**"Baş nazir "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"da dəyişiklikləri təsdiq edib. Yeni qaydalarla bu ilin fevralında Nazirlər Kabinetinin təsdiq etdiyi sənədə bir sıra dəyişikliklər edilib. Qeyd edək ki, sözügedən sənədlə qaydaların tam siyahısı müəyyən edilib".**

Bunu deputat Vüqar Bayramov öz sosial media hesabında yazıb.

V.Bayramov qeyd edib ki, yeni qaydalarla valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılması ilə bağlı indikatorların siyahısı və qaydaların miqyası daha da dəqiqləşdirilir: "Belə ki, valyuta sərvətləri və milli valyutanın bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında da onların hərəkəti dayandırılır, yəni aparılmasına icazə verilmir. Burada söhbət eyni zamanda inzibati araşdırmanın və ya cinayət təqibinin aparılması zamanı valyuta sərvətləri və milli valyutanın maddi sübut qismində götürülməsi halları istisna olmaqla, onların bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi hallarından gedir.

Bütövlükdə, qərarın qəbulunda məqsəd ölkədən qanunsuz valyuta çıxarılmasına qarşı mübarizənin gücləndirilməsi, aydın və ölçülə bilən indikatorlarla prosesdə şəffaflıq və hesabatlığı daha da artırmaqdır.

Qeyd edək ki, bu qaydalar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq müəyyənləşdirilib".



## İlham Əliyev Şavkat Mirziyoyevə zəng edib

**Prezident İlham Əliyev Özbəkistan prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlət başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb.

Şavkat Mirziyoyev göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Prezidentlər bu il iyulun 5-6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün və bu tədbir çərçivəsində təmasların əhəmiyyətini qeyd ediblər.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

## Zakir Həsənov azad edilmiş ərazilərə getdi

**Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.**

Azərbaycan Ordusunda aparılan islahatların müsbət nəticələrini qeyd edən nazir bu istiqamətdə görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə bildirib.

Sonda general-polkovnik Z.Həsənov hərbi qulluqçuların qayğıları ilə maraqlanıb, onların fərdi hazırlığının inkişaf etdirilməsi, eləcə də bilik və bacarıqlarının artırılmasına dair şəxsi heyətə müvafiq tövsiyələr verib.

## Türkiyə-Azərbaycan Universitetinə cəmi 90 tələbə...



**Bu il ilk dəfə tələbə qəbulu aparılacaq universitetlərin plan yerləri açıqlanıb. Bunlar Qarabağ Universiteti, Türkiyə-Azərbaycan Universiteti və İtaliya-Azərbaycan Universitetidir.**

Bu il Xankəndidə yerləşən Qarabağ Universitetinə 1120 tələbə qəbulu həyata keçiriləcək.

Türkiyə-Azərbaycan Universitetinə 90 tələbə qəbul ediləcək. İtaliya-Azərbaycan Universitetlərinə isə 160 qəbul yeri ayrılıb.

Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universitetində təhsil ödənişsiz, İtaliya-Azərbaycan Universitetində isə yalnız ödənişli olacaq.

Belə ki, İtaliya-Azərbaycan Universitetində 4 ixtisasa qəbul həyata keçiriləcək, hər bir ixtisasın illik təhsil haqqı 6000 manat təşkil edəcək.

İxtisas seçimi avqustun 10-dan sonra aparılacaq.

## Havanın sərinləyəcəyi anonsu



**Azərbaycanda iyulun 24-dən hava şəraiti dəyişir. Bu barədə Mlli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında iyulun 24-ü axşamdan 25-i axşamadək bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. İyulun 25-də yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı ehtimalı var.

Azərbaycanın rayonlarında iyulun 24-ü gündüz dağlıq ərazilərdən başlayaraq 26-sı axşamadək bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir, leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, eləcə də Lənkəran-Astara bölgəsinin bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.



## Xalq artistinin yaraladığı qadına kompensasiya veriləcək?

**Xalq artisti Ağadadaş Ağayevin Binəqədi rayonu ərazisində yerləşən klinikaların birində mühafizəçi ilə əlbəyaxa olması gündəmin əsas mövzusuna çevrilib. A.Ağayev tərəfindən atılan balta isə klinikada xadimə işləyən Nəzakət Paşayevanın ayağına xəsarət yetirib.**

Konkret.az həmin klinika ilə əlaqə saxlayıb. Klinikanın hüquqşünası Xeyransa Babayeva bildirib ki, N. Paşayeva evində müalicə alır: "Səhhəti normaldır. Həkimlərin dediyinə görə, onun səhhəti 1 həftə ərzində normala dönməlidir. Ayağından xəsarət aldığı üçün yeriməsində çətinlik yaşayır, axsayır. Xəstəxanada deyil, müalicəsi ev şəraitində davam etdirilir. Aldığı xəsarət ağır deyil".

Hüquqşünas Nəzakət Paşayevanın təzminat davası aça biləcəyi ehtimalına da aydınlıq gətirib: "İndi təzminat iddiası ilə bağlı nəsə demək tezdir. Bu mövzu rəhbərlik səviyyəsində müzakirə edilməlidir. Yalnız bundan sonra dəqiq nəsə demək olar".

## Azərbaycanda un ucuzlaşdı



**Azərbaycanda un ucuzlaşıb. Ötən ayla müqayisədə hazırda unun topdansatış qiyməti enib. Topdansatışla məşğul olanlar iyulun 18-dən etibarən istehsalçıların unun qiymətini 1 manatdan çox azaltdıqlarını bildirib.**

Ölkədə hazırda 50 kq-lıq unun topdansatış qiyməti 26,8-28,5 manat aralığında dəyişir. Ötən ay bu rəqəm 28,3-29,5 manat təşkil edirdi. Bəzi ekspertlər hesab edirlər ki, bir müddət əvvəl daşıma xərclərinin artması buğdanın qiymətinin enməsi hesabına kompensasiya edilə bilər. Yəni daşımaya görə ölkədə qiymət artımı baş verməməlidir.

## Hacıqabul sakini qaraciyərini anasına verdi

**Uzun illərdir qaraciyər yetməzliyindən əziyyət çəkən anaya oğlu donor olub. Hacıqabul rayonunun sakini, 1996-cı il təvəllüdlü Elçin İxtiyar oğlu Qaniyev ölümlə üz-üzə qalan anası 1975-ci il təvəllüdlü Tamam Zakir qızı Qaniyevaya öz qaraciyərini verib.**

TƏBİB-in mətbuat xidmətindən bildirilib ki, oğlun və ananın həyatı üçün təhlükə geridə qalıb.

Qeyd edilib ki, qaraciyər yetməzliyi, serroz diaqnozu ilə Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında daimi həkim nəzarətində olan və müalicə alan T.Qaniyevanın bir müddət əvvəl səhhəti daha da pisləşib və ona qaraciyər transplantasiyası əməliyyatı olunması tövsiyə olunub.

Yekun qərara əsasən, 06.05.2024-cü ildə icbari tibbi sığorta hesabına Bakıda əməliyyat keçirən anaya öz oğlu donor olub və əməliyyat uğurla başa çatıb.

Əməliyyatdan sonra hər iki şəxsin Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında müalicəsi davam etdirilir.

Hazırda ana və oğlunun vəziyyəti qənaətbəxş qiymətləndirilir.



## UEFA "Qarabağ"ın oyununun hakimini niyə dəyişdi?

**UEFA "Qarabağ"ın Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində "Linkoln"la keçirəcəyi cavab oyununun hakimlərini dəyişib.**

Qitə futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, Bakıdakı matça Danimarkadan olan hakimlər briqadası gələcək.

İyulun 30-da Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək matçı Yakob Sundberq idarə edəcək. Ona Deniz Yurdakul və Viktor Skitte kömək edəcək. Dördüncü hakim funksiyasını Yakob Karlsen yerinə yetirəcək. Yonas Hansen VAR, Yens Maae AVAR kimi iş başında olacaq.

Qeyd edək ki, UEFA daha əvvəl Ukraynadan olan hakimlər briqadasının qarşılaşmanı idarə edəcəyini açıqlamışdı.

## Çimərlik mövsümü başlayandan 13 nəfər ölüb

**Bu ilin iyun və iyul ayları ərzində Bakı şəhəri üzrə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə suda boğulma hadisəsi ilə bağlı ümumillikdə 30 nəfərin müraciəti qeydə alınıb.**

Bu barədə TƏBİB-dən bildirilib.

Qeyd olunub ki, suda boğulanlardan 27-si kişi, 3-ü qadın olub: "Onlardan 11 nəfər xəstəxanaya təxliyə olunub, 6 nəfərə yerində yardım göstərilib. 13 nəfərin isə ölüm faktı qeydə alınıb".

Xatırladaq ki, iyunun 15-dən ölkədə çimərlik mövsümü başlayıb.



## Seçicilərin çoxu qadınlardır

**"Azərbaycanda seçicilərin çoxu qadınlardır".**

Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. O qeyd edib ki, 40 minə yaxın komissiya üzvünün də əksəriyyəti qadınlardır: "Biz səsvermə günü qadın seçicilərin aktivliyinə önəm veririk. Bu məsələdə qadınların rolu kişilərə nisbətdə daha yüksəkdir".

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

# Akademikin qətlinə görə tutulan Mahir Zeynalov müəmması

## Ziya Bünyadov cinayətinin üstü tam açılmayıb?

**Bakı şəhəri Səbayel Rayon Məhkəməsində Azərbaycan Respublikasının vətəndaşı Bağırov Akif Əlimirzə oğlunun barəsində həbs-qətimkan tədbiri seçilib. İşin hallarından görünür ki, akademik Ziya Bünyadovun qətlinə görə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş Zeynalov Mahir Nurhüseyn oğlunun azadlığa buraxılmasına nail olmaq üçün xarici xüsusi xidmət orqanının tapşırığı ilə Bağırov Akif Əlimirzə oğluna külli miqdarda pul vəsaiti göndərilib.**

Akif Bağırov bu istiqamətdə yollar axtarmaq üçün həmin vəsaitləri məsuliyyətə cəlb edilmiş digər Azərbaycan Respublikası vətəndaşına verib və bu vəsaitlər Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi çərçivəsində həyata keçirilmiş tədbirlər zamanı aşkar edilərək sübut qismində götürülüb.

Səbayel Rayon Məhkəməsinin qərarı ilə Akif Bağırov barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Ziya Bünyadovun qatillərinin arasında həqiqətən də Mahir Zeynalov adlı adam var. Hazırda Qobustan qapalı həbsxanasında qətldə birbaşa iştirak etmiş əxslərdən biri - Nizami Na - ğıyev ömürlük məhkumluq həyatı yaşayır. Onu və Qabil Babayevi hadisə yerinə aparan Mahir Zeynalov da onunla bərabər ömürlük həbsdədir. "Yeni Müsavat"ın əməkdaşı bir neçə il əvvəl Qobustan həbsxanasında Nizami Nağıyevlə görüşüb qətlin tarixçəsi və sifarişçi ilə bağlı fikirlərini öyrənmişdi. Hökmə görə, dəstə üzvləri 1997-ci ilin yanvarında Bakıda yığıncaq keçiriblər.Yığıncaqda Nizami Nağıyev, Cavanşir Aslanov, Mahir Zeynalov, Qalib Babayev, Tariyel Ramazanov, "Nəsrullah" adlı şəxs iştirak edib və akademik Ziya Bünyadovun xidməti, siyasi fəaliyyətinə son qoymaq qərarlaşdırılıb. Qətlin həyata keçirilməsi planı qurulub, dəstə üzvlərinin hər birinin rolu öz aralarında bölüşdürülüb. Yığıncaqda akademikin İran müşteyidləri tərəfindən ölümünə "fətva" verildiyi vurğulanıb. Bildirilib ki, Ziya Bünyadov İslam tarixinin tərcüməsində guya kobud səhvlərə yol verib. Hökmdə bildirilib ki, Nizami Nağıyev, Mahir Zeynalov, Xanlar Cabbarov, Maarif Əliyev, Rövşən Həsənov, Qədir Abbasov, Rizvan Məmmədov, Qalib Babayev Tariyel Ramiz oğlu Ramazanov istintaqa məlum olmayan, özlərini İran İslam Respublikası vətəndaşları kimi təqdim edən "Məhəmməd" və "Nəsrullah" adlı şəxslərin 1993-cü ildə Azərbaycanda, o cümlədən Bakı şəhərində İslam dininin müdafiəsi pərdəsi altında ağır və xüsusilə ağır cinayətlər törədilməsi məqsədilə yaratdıqları "Vilayəti Əl-Fəqih Hizbullah" adlı cinayətkar birliyə qəbul olunublar. 1993-cü ildən 2000-ci ilin oktyabrınadək orada iştirak ediblər. 21 fevral 1997-ci il saat 16 radələrində dəstə 2 qrupa ayrılıb. Tapança-pulemyotla silahlanmış Tariyel Ramazanov və Cavanşir Aslanov akademik Ziya Bünyadovun evə qayıtma vaxtını mobil telefon vasitəsilə 2-ci qrupa məlumat verib. Nizami Nağıyev



bıçaqla, Qalib Babayev isə tapança ilə silahlanıb Mahir Zeynalovla birlikdə avtomaşınla akademik Ziya Bünyadovun yaşadığı binanın yaxınlığında növbəti zəngi gözləyiblər.

Axşamüstü saat 6 radələrində Tariyel Ramazanov akademik Ziya Bünyadovun evinə gəlməsi barədə Mahir Zeynalova məlumat verib. O, kənar şəxslər barədə işarə vermək məqsədilə avtomaşında qalıb, Qalib Babayev binanın tinində, Nizami Nağıyev isə 3-cü girişin qarşısında mövqe tutub. Akademik Ziya Bünyadovun mənzilinə tək getməsi barədə Qalib Babayevin işarəsindən sonra Nizami Nağıyev binanın 3-cü girişinə daxil olaraq gözləyib. 1-ci və 2-ci mərtəbələrin arasındakı meydançada Ziya Bünyadovun arxa tərəfinə keçib və onun sağ və sol qabırğaaltı, qarın nahiyələrinə, sol əlin arxa bayır səthinə 5 dəfə ardıcıl zərbə vurub. Həmin vaxt hadisə yerinə Qalib Babayev də özünü çatdırıb və "Makarov" markalı səsboğucusu olan tapançadan Ziya Bünyadovun sifətinin sağ yanaq nahiyəsinə və boynuna atəş açıb. Akademikin həyatına son qoyan hər 2 şəxs Mahir Zeynalovla birgə avtomobillə hadisə yerindən qaçıb.

3 il sonra dəstə üzvlərindən Nizami Nağıyev və Mahir Zeynalov tutulublar. Nizami Nağıyev qətldən 5 ay sonra Gömrük Komitəsinə işə düzəlib, tutularkən də gömrük inspektoru olub. Atası Adil Nağıyev həmin vaxt Abşeron Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini daşıyıb. Nizami Nağıyev "Yeni Müsavat"a demişdi ki, Ziya Bünyadovu onlara Aydın kimi tanıdıblar, onun və bir müxalifət liderinin qətlini sifariş veriblər. Sifarişi alan Tariyel Ramazanov Milli Elmlər Akademiyasının işçisi olub. 2000-ci ildə qətlin üstü açılarkən o və dəstənin digər üzvləri ölkədən qaçıblar. Nizami Nağıyev onların İrana qaçdıqlarını ehtimal etdiyini bildirmişdi.

Son həbsdən belə anlaşılır ki, 27 il keçməsinə baxmayaraq, hələ də Ziya Bünyadovun işində maraqlı olan dairələr var. "Bu işlə bağlı külli miqdarda pul xərcləmək hansı dairələrin marağında ola bilər və niyə məhz Mahir Zeynalovu azadlığa çıxarmaq istəyirlər" sualına cavab vermək hələ ki araşdırma mövzusudur. Yalnız onu qeyd edək ki, Ziya Bünyadovun qətlinə görə tutulan Mahir Zeynalov qətlin birbaşa iştirakçısı olmayıb. Hadisə yerinə isə onun idarə etdiyi maşınla gedilib.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Ağadadaş Ağayev fəxri adını itirəcək?

## Məhkəmə cinayət məsuliyyətinə cəlb edilən müğənnini xalq artisti adından məhrum edə bilər

**Xalq artisti Ağadadaş Ağayevlə bağlı qalmaqal ictimaiyyət arasında ciddi rezonans doğurub və fəxri adlar məsələsini yenidən gündəmə gətirib.**

Sosial şəbəkələrdəki müzakirələrdə bir çoxları Ağadadaş Ağayevi fəxri adına yaraşmayan hərəkətlərə görə qınayıb, hətta onun bu fəxri tituldan məhrum edilməsini istəyənlər də olub. A.Ağayev 1998-ci ildə Əməkdar artist, 2006-cı ildə Xalq artisti fəxri adını alıb.

Eyni zamanda fəxri adının ləğv edilməsini tələb edənlər də az deyil. Bir çoxları hesab edirlər ki, keçmiş SSRİ-dən miras qalan Xalq artisti və Əməkdar artist titulları sənətçilər arasında ayrı-seçkilik yaradır.

Daxili İşlər Nazirliyinin məlumatına görə, iyulun 22-də paytaxtın Binəqədi rayonunda yerləşən özəl tibb müəssisəsinin ("Medera" hospitalı) gözətçiçi N.Cəlilovla Ağadadaş Ağayev arasında insident baş verib.



İnsidentin videogörüntülərindən aydın olur ki, Ağadadaş Ağayev gözətçi N.Cəlilova balta atır, daha sonra onlar əlbəyaxa dava edirlər. Rəsmi məlumata görə, müğənninin atdığı balta başqa bir qadına xəsarət yetirib.

DİN fakta görə Cinayət Məcəlləsinin xuliqanlıq maddəsi ilə cinayət işi açıldığını bəyan edib. Münaqişə tərəfləri N.Cəlilov və A.Ağayev cinayət məsuliyyətinə cəlb olunub, istintaq hərəkətləri davam etdirilir.

Hadisə zamanı müğənnini döyən gözətçinin hərəkətlərini pisləyənlər də çoxdur və ictimaiyyət olaya gerçək hüquqi qiymət verilməsini gözləyir.

Fəxri ad daşıyan Ağadadaş Ağayevin isə qeyri-etik davranışı və qınaq obyektinə çevrilməsi müğənnini hədəf edib.

Bəs Ağadadaş Ağayevin fəxri adı onun əlindən alına bilərmi?

Modern.az-ın məlumatına görə, Azərbaycanda fəxri ad fərdi təşəbbüslə, habelə Milli Məclisin və Nazirlər Kabinetinin təklifi ilə Prezident tərəfindən verilir.

Fəxri ad adətən Azərbaycan Respublikasının vətəndaşlarına verilir, lakin digər ölkələrin vətəndaşlarına da təqdim oluna bilər. Azərbaycan Respublikasının eyni fəxri adı bir şəxsə təkrar verilmir.

Bəs fəxri ada layiq görülən şəxs hansı hallarda ondan məhrum edilə bilər?

***Əsasnaməyə görə, fəxri ad almış şəxs iki halda ondan məhrum edilə bilər:***

***1. Fəxri ad almış şəxs ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda;***

***2. Fəxri ad almış şəxs onu ləkələyən xəta törətdikdə.***

Cinayət məsuliyyətinə cəlb edilən müğənni Ağadadaş Ağayevlə bağlı istintaq hərəkətləri yekunlaşandan sonra işə məhkəmədə baxılacaq. Məhkəmə müğənnini fəxri addan məhrum da edə bilər.

Xatırladaq ki, bundan əvvəl Azərbaycanda fəxri adlardan məhrum edilmə halları olub.

Belə ki, yazıçı Əkrəm Əylisli 2013-cü ildə Xalq yazıçısı fəxri adından məhrum edilib. Buna onun yazdığı "Daş yuxular" əsəri səbəb olmuşdu. Həmin əsərdə Azərbaycan xalqının antihumanist obrazını formalaşdırmağa cəhd göstərən, onu ümumbəşəri dəyərlər sisteminə zidd əməllərdə əsassız günahlandıran Ə.Əylisli Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti saxtalaşdırmış, uzaq və yaxın tarixi keçmişimizə qara yaxmış, 1 milyondan çox didərgin soydaşımızın mənliyini təhqir etmişdi. Bununla da o, Azərbaycan Respublikasının "Xalq yazıçısı" fəxri adını ləkələmiş və bu addan məhrum edilməsi barədə dövlət strukturlarının, ictimai qurumların, vətəndaşların çoxsaylı müraciətləri nəzərə alınmışdı. Ona bu fəxri ad 1998-ci ilin 23 mayında verilmişdi.

2001-ci ildə dövlət çevrilişinə cəhddə günahlandırılıb həbs olunan Rasim Əkbərov isə Azərbaycanın Milli Qəhrəmanı fəxri adından məhrum edilib. Ona Azərbaycanın Milli Qəhrəmanı adı 23 iyun 1992-ci il tarixində verilmişdi.

1994-cü ilin oktyabrında Azərbaycanın Milli Qəhrəmanı adına xələl gətirən hərəkətlərə yol verdiyinə görə keçmiş baş nazir Surət Hüseynov da bu fəxri titulдан məhrum edilmişdi. Ona Azərbaycanın Milli Qəhrəmanı adı 1992-ci ilin 8 oktyabrında verilmişdi.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

**Azərbaycan Ermənistanı COP29 iqlim sammitinə dəvət edib. Hikmət Hacıyev II Qlobal Media Forumunda xarici jurnalistlərə açıqlamasında Muxtar Babayevin (COP29-un prezidenti) Ermənistanın xarici işlər nazirinə dəvət məktubu göndərdiyini bildirib.**

# Paşinyan COP29-a görə Bakıya gələndə... - sensasion iddialar

## Noyabrda Azərbaycan paytaxtında çərçivə sazişi imzalana bilər; Ermənistanın baş nazirinin tədbirdə iştirak etməsini kimlər istəmir?; İrəvana qayıdanda təyyarəsində onlar... - ekspertlərin təhlili

Azərbaycan dövləti beynəlxalq miqyasda mühüm tədbir keçirmək üçün səlahiyyət alıb və bu səlahiyyəti yerinə yetirmək məqsədilə ölkəmiz BMT-yə üzv olan bütün dövlətlərin hökumətlərinə, o cümlədən Ermənistana rəsmi dəvət göndərib.

Qeyd edək ki, münaqişə illərində Azərbaycan dövlətinin nümayəndə heyəti dəfələrlə Ermənistana gedib, Ermənistanın da nümayəndə heyətləri Bakıya gəlib. Eyni zamanda ictimai təşkilatların nümayəndələri Bakıya və Ermənistana qarşılıqlı səfərlər ediblər. Yəni COP29 Azərbaycan və Ermənistan nümayəndə heyətlərini görüşdürəcək ilk tədbir deyil.

"Hraparak"ın məlumatına görə, Paşinyan keçirəcəyi mətbuat konfransında noyabrda Bakıda keçiriləcək COP29 sammitində Azərbaycanın Ermənistanın iştirakına dair dəvəti barədə danışacaq.

Bu barədə qəzetə Ermənistan hökumətinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat verib. "Biz hökumətə yazılı sorğu göndərərək, Ermənistan tərəfinin Azərbaycandan dəvəti nə vaxt aldığını və baş nazir aparatının bu dəvətə necə reaksiya verdiyini bildirməyi xahiş etdik. Maraqlanırdıq ki, baş nazir Bakıya gedəcək və COP29 sammitində iştirak edəcəkmi?", - "Hraparak" yazıb. "Baş nazir Nikol Paşinyan sizin qeyd etdiyiniz məsələlərə məzuniyyətdən sonra avqustda keçiriləcək mətbuat konfransında aydınlıq gətirəcək", - deyə hökumətdən qəzetə cavab veriblər.

Ermənistanın rəsmi dəvəti qəbul edib-etməyəcəyi haqda bilgi yoxdur, amma bu məsələ ətrafında erməni mediasında artıq xeyli spekulyasiyalar, sensasion iddialar səslənməyə başlayıb.

"AzadlıqRadiosu"nun erməni xidmətinin iddiasına görə, hakimiyyətə yaxın politoloq Areq Koçinyan bu yaxınlarda Paşinyanın COP29-da iştirak etmək üçün noyabrda Bakıya səfəri ilə bağlı proqnozunu bölüşüb. Onun dediyinə görə, səfər zamanı Paşinyanla müəyyən sənəd imzalanacaq: "Bu imzalanmanın iqlim hadisəsi çərçivəsində baş tutacağını istisna etmirəm, bir şərtlə ki, Paşinyan İrəvana qayıdarkən Azərbaycanda əsirlikdə olan bütün erməniləri özü ilə gətirsin".

Yerkramas.org saytı isə iddia edir ki, "Prezident Əliyev gələcək sazişin prinsipləri ilə bağlı ilkin sənəd imzalamaq təklifi verib": "Əliyevin müşaviri Elçin Əmirbəyov da 198 ölkənin nümayəndələrinin qatılacağı sözügedən iqlim sammiti çərçivəsində müəyyən sənədin imzalanacağını istisna etməyib", - deyə xəbərdə bildirilir.



Çərçivə sazişi Bakıda imzalana, Azərbaycanda həbsdə olan ermənilər İrəvana qaytarıla bilərmi?

**Deputat Bəhruz Məhərrəmov Azərbaycanın Ermənistanı COP29-a dəvət etməni təbii sayır:** "Cənab İlham Əliyev bir daha göstərməkdədir ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları, o cümlədən Ermənistanla sülh, əmin-amanlıq şəraitində yaşamaq və fəaliyyət göstərmək niyyətində səmimidir. Ermənistanın 30 il davam etmiş işğal və təcavüzünə son qoyulmasından, Azərbaycanın suveren haqlarını bərpa etməsindən sonra məhz möhtərəm cənab Prezidentin təşəbbüsü ilə başlanan sülh danışıqları və əldə edilən nəticələr də bir daha sübut edir ki, Azərbaycan bölgədə gərginlik arzulamır. Biz əməkdaşlıq mühiti və beynəlxalq hüququn aliliyinin dövlətlərarası münasibətlərdə əsas element kimi mövcudluğunu arzu edirik. Bildiyiniz kimi, COP29 çərçivəsində artıq Azərbaycan və Ermənistan arasında ötən ilin dekabrında xoş niyyət ifadəsi təcrübəsi mövcuddur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş Nazirinin Aparatının ötən il dekabrın 7-də yaydığı bəyanatla əldə olunan əsas razılıq istiqamətlərindən biri məhz COP29-u əhatələyirdi. Tərəflər xoş niyyətin təzahürü olaraq ciddi iradə ifadə etmiş, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına ev sahibliyinə öz namizədliyini geri götürərək Azərbaycan Respublikasının namizədliyini dəstəkləmişdi. O cümlədən Azərbaycan Respublikası xoş niyyətin təzahürü olaraq Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyinə öz dəstəyini vermişdi. Belə olan təqdirdə Azərbaycan Respublikasının Ermənistanı COP29-da iştirak üçün dəvət etməsi çox təbiidir. Bildiyiniz kimi, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, separatizmə son qoyması fonunda Bakı və İrəvan arasında yekun sülh müqaviləsinin imzalanması istiqamətində heç bir faktiki əngəl qalmamış, faktiki olaraq sülh üçün tarixin heç bir dövründə olmadığı qədər unikal imkan və münbit şərait formalaşmışdı. Bu çərçivədə Azərbaycan və Ermənistan arasında rəsmi Bakının beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə əsasən formalaşdırdığı şərtlərin müzakirəsi istiqamətində ciddi irəliləyiş əldə olunmuş, habelə Azərbaycan Prezidentinin haqlı olaraq müəyyən etdiyi direktivlər əsasında sülh danışıqları ilə sərhədlərin delimitasiya və demarkasiyası prosesi ayrılmış, vasitəçisiz təmaslarla indiyədək müşahidə edilməyən ciddi uğurlara nail olunmuşdu. Lakin regionda münaqişəyə özünün maraqlarının təmini üsulu kimi baxan Qərb imperializmi bu prosesdən razı görünmür və son zamanlar Ermənistanın yenidən silahlandırılması, o cümlədən Ermənistanda mövcud revanşist kəsimə açıq dəstəyin verilməsi Qərbin bu bölgədə sülh və sabitlik qarşısında əngəl kimi çıxış etdiyini göstərir. Bir neçə gün öncə Böyük Britaniyada Azərbaycan və Ermənistan liderlərinin görüşünün baş tutmaması, daha dəqiq desək, Qərb imperializminin təsiri altında Paşinyanın həmin görüşdən imtina etməsi isə möhtərəm cənab Prezidentin Şuşa Qlobal Media Forumunda da ifadə etdiyi kimi, əvvəlki nikbinliyi xeyli azaldıb. Görünən odur ki, Amerika Birləşmiş Ştatları, Fransa və Avropa İttifaqının təhrikedici mövqeyi və verdiyi heç bir perspektivə malik olmayan vədlər Ermənistanı yenidən yolundan azdırıb. Azərbaycanın hər bir platformaya yekun sülh müqaviləsi üçün şans kimi baxdığı, regionda sülh və sabitlik üçün ciddi təşəbbüslər göstərdiyi bir vaxtda Ermənistanın bu mövqeyi, təbii ki, qəbuledilməzdir".

**Deputat siyasi və iqtisadi cəhətdən tam müstəqil olmadığı üçün Ermənistanın bu tədbirdə iştirak etməsinə imkan verilməyəcəyini düşünür:** "Bu mənada, indidən ehtimal irəli sürmək olar ki, Qərb ya Ermənistanı bütövlükdə COP29-da iştirak etməyə qoymayacaq, yaxud İrəvan tədbirdə təmsil olunsa belə, Qərb Ermənistan rəhbərliyinin COP29 münasibətilə Bakıya səfərinə icazə verməyəcək. Ermənistanın siyasi və iqtisadi cəhətdən müstəqil olmaması, o cümlədən suveren xarici siyasət kursu həyata keçirməməsi, həmçinin mövcud erməni iqtidarının marionetlərdən ibarət olması fonunda əminliklə demək olar ki, Qərb bu istiqamətdə Ermənistanın hərəkət kursunu tam şəkildə ələ ala biləcək. Lakin Ermənistan rəhbərliyi və erməni xalqı başa düşməlidir ki, regionda region dövlətləri, xüsusən bu bölgədə yeni geosiyasi konfiqurasiya formalaşdırmış Azərbaycanla münasibətlərin normallaşması Ermənistan üçün tarixi şansdır. O cümlədən Azərbaycanın Ermənistanı COP29-a dəvət etməsi Ermənistan və Azərbaycan arasında dayanıqlı sülh üçün mühüm bir mərhələ rolunu oynaya bilər və Ermənistan əgər bu fürsəti qaçırarsa, tarixinin ən böyük səhvlərindən birini etmiş olacaq. Əlbəttə, Azərbaycan üçün Ermənistanın COP29-da iştirak edib-etməməsi prioritet məsələ deyil, lakin biz sülh-əməkdaşlıq mühiti arzuladığımız üçün İrəvanın ən yüksək səviyyədə Bakıdakı tədbirdə iştirakını məqsədəmüvafiq hesab edirik. Bu, cənab İlham Əliyevin Ermənistana verdiyi növbəti şansdır və əgər Ermənistan "fail state" statusundan qurtulmaq, dalandan birdəfəlik çıxmaq və real müstəqilliyə doğru nəticələr əldə etmək istəyirsə, bu şansdan yararlanmalı və COP29-da iştiraka Azərbaycanla yekun sülh müqaviləsi istiqamətində tarixi imkan kimi baxmalıdır".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli isə qeyd etdi ki, Paşinyanın Bakıda keçiriləcək COP29-da iştirakı ilə bağlı iddialar erməni mediasında mütəmadi səslənir:** "Bu yaxınlarda Paşinyan tərəfi bu cür iddiaları təkzib etmişdi. İndi yenidən səslənməyə başlayıb. Düzdür, yenidən səslənməyə səbəbi də Bakının dəvəti oldu. Yuxarıda qeyd edildiyi kimi, Bakıya və İrəvana hər iki tərəfin səfəri olub, amma bu cür səfərlər üst rəsmi səviyyədə olmayıb. İndi isə məhz üst səviyyədə səfər gözlənilir. Bu haqda yaxınlarda media orqanlarımızın birinə fikir bildirəndə hətta Paşinyanın iştirak edə biləcəyini də səsləndirmişdim. Düzdür, verdiyim müsahibə anında rəsmi Bakı erməni tərəfə dəvət göndərməmişdi. Bildirmişdim ki, dünyadakı müasir siyasət çox sürətlə hadisələri belirləyir. Fikrimcə, Ermənistan baş naziri, xarici işlər naziri və yaxud da parlament spikeri Bakıda keçiriləcək COP29 tədbirində iştirak edə bilər. Ermənistan parlamentinin spikeri, Azərbaycan Milli Məclisinin sədri haqqında xoş sözlər də söyləmiş və görüşlərinin səmərəli keçdiyini bildirmişdi. Ən yüksək səviyyədə Ermənistan heyəti Azərbaycana səfər etsə, bu həqiqətən də tarixi bir səfər olardı və tərəflərin sülhə doğru atılan mühüm bir addımı kimi qiymətləndirilirə bilər. Bütün bunların BMT çərçivəsində olması da simvolik bir məzmun özündə daşıyacaqdı. Unutmayaq ki, COP29 BMT çətiri altında keçiriləcək bir irimiqyaslı tədbirdir. Bununla BMT son illər dünyada itirilmiş nüfuzunu bir az da olsa bərpa edə bilər. Paşinyanın Bakıya səfəri baş tutsa, burada hansı razılaşmalar əldə olunsa və bundan sonra bu razılaşmaların Ermənistan və Azərbaycanda necə əks-səda doğuracağı, bütün bunlara da gedişatın davamı kimi diqqət edilməlidir. O ki qaldı əsirlərin qaytarılmasına, bu baş verə bilər, amma separatçı liderlərin təhvil verilməsini düşünmürəm. Çünki nə Bakı buna gedər, nə də, göründüyü kimi, İrəvanın necə deyərlər, o qədər də bunlardan ötrü gözü atmır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Məleykə Abbaszadəyə etimadın sirri - DİM-də yenə birinci oldu

## Ekspert: "İdarəetmədə yeni platformanın olması o deməkdir ki, imtahan modellərində yenilikləri görə biləcəyik"

**Prezident İlham Əliyev Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" fərmanda dəyişiklik edib. Dəyişikliklə Dövlət İmtahan Mərkəzinin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla, 5 üzvdən ibarət Müşahidə Şurası yaradılır.**

DİM-in fəaliyyətinə cari rəhbərliyi 3 üzvdən ibarət İdarə Heyəti həyata keçirəcək. Müşahidə Şurasının sədri Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva təsdiq edilib. Müşahidə Şurasının üzvləri isə bunlardır:

Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini;

İdris İsayev - Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini;

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini;

Anar Kərimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

Prezident Məleykə Abbaszadənin Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri təyin edilməsi barədə sərəncam da imzalayıb. Qərara görə, mərkəzin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir. Mərkəzin Müşahidə Şurası mərkəzə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

Yada salaq ki, indiyədək DİM-ə Direktorlar Şurasının sədri, 2 sədr müavini, və ictimai əsaslarla fəaliyyət göstərən 4 nəfər üzvdən ibarət tərkibdə fəaliyyət göstərirdi. 12 aprel 2016-cı il tarixli sərəncamla Məleykə Abbaszadə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri vəzifəsinə təyin olunub. Namiq Babayev və Bəhram Xəlilov isə Direktorlar Şurası sədrinin müavini vəzifəsinə təyin olunublar. Ayda-zadə Kamil, Bayramov Ceyhun, Hacıyev Niyazi və İsmayılzadə Fariz Direktorlar Şurasının üzvü təyin olunublar.

Şuranın iclasları ayda bir dəfədən az olmayaraq keçirilir. Şuranın növbədənkənar iclasları şura üzvlərinin yarıdan çoxunun və ya şura sədrinin təşəbbüsü ilə keçirilir.

Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarları şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər olduqda, şura sədrinin səsi həlledici sayılır. Şuranın qərarları şura sədri tərəfindən imzalanır. Niyə yaradıldı, məqsəd nədir?

Qeyd etmək yerinə düşər ki, neçə vaxt idi ki, təhsil sferasında dəyişikliyin olması ilə bağlı çağırışlar edilirdi. Əsasən də qəbul imtahanları zamanı bu məsələ gündəmə gəlirdi. Ali məktəblərə qəbul imtahanları zamanı tapşırıqların çətin olması səbəbindən narazılıqlar baş qaldırırdı. Qeyd edilirdi ki, suallar məktəb dərsliklərindən deyil, əsasən DİM-in dərs vəsaitlərindən salınır. Bu səbəbdən də abituriyentlər imtahan zamanı çətinliklərlə üzləşirlər. Ümumiyyətlə, dərsliklərlə qəbul imtahanlarına düşən suallar arasında ziddiyyətin olduğu deyilirdi. O səbəbdən də tələbə qəbulu prosesində həm Elm və Təhsil Nazirliyinin, həm də DİM rəsmilərindən ibarət yeni qurumun yaradılması da təklif olunurdu. Göründüyü kimi, DİM-in Müşahidə Şurasının yeni tərkibində müxtəlif qurumların nümayəndələri təmsil olunur. Bəs görəsən, bundan əvvəl yaşanan bir sıra problemlər öz həllini tapacaqmı? Ümumiyyətlə, nə kimi yeniliklərin şahidi olacağıq?



**Təhsil eksperti Kamran Əsədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb**: "2016-cı ildə publik Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) yerində Dövlət İmtahan Mərkəzi yaradıldı və publik hüquqi şəxs qismində çıxış etdi. Qeyd edim ki, o vaxt nizamnamədə idarəetmə qurumu kimi Dövlət İmtahan Mərkəzində Direktorlar Şurası var idi. Amma mahiyyət etibarilə bu düzgün deyildi. Direktorlar Şurasının üzvlərinin heç biri DİM-də çalışmırdı və orada direktor səlahiyyətləri yox idi. Ona görə müəyyən qədər qanunvericilikdə problem olaraq qiymətləndirildi. Həmçinin keçmiş direktorlar şurasının üzvlərinin böyük əksəriyyəti artıq fərqli sahələrdə çalışdıqları üçün yeni bir struktura ehtiyac var idi. Qanunvericiliyə görə, publik hüquqi şəxslərin hər birində mütləq şəkildə Müşahidə Şurası olmalıdır. Bunlar DİM-də ictimai əsaslarla fəaliyyət göstərən bir strukturdur. Bu, yeni bir idarəetmə modelidir. Təbii ki, bu o demək deyil ki, Məleykə Abbaszadənin səlahiyyətləri azalır. Əksinə, daha geniş imtahanlar keçirmək üçün DİM-in səlahiyyətləri var və qurumun yeni rəhbəri yenə də DİM-in sədri Məleykə Abbaszadədir. Sadəcə olaraq, normativ hüquqi aktlara edilən dəyişikliyə əsasən direktorlar şurası ola bilməzdi. Burada bir məsələ də var: DİM-in özünün fəaliyyətinə nəzarət etmək. Yəni Müşahidə Şurası fəaliyyətə nəzarəti həyata keçirəcək, İdarə Heyəti isə buradakı bütün funksiyaları yerinə yetirən qurumdur. İdarə Heyətinin də sədri DİM-in öz rəhbəridir. Təbii ki, bu, DİM-in fəaliyyətinə daha ciddi nəzarəti həyata keçirməyə imkan verən bir strukturdur. Etiraf edək ki, DİM TQDK olan vaxtdan bəri ölkədə obyektiv, şəffaf, əlçatan imtahan təşkil edən bir qurumdur. Keçirdiyi imtahanların beynəlxalq etibarlılığı var. Hətta dünyanın ən nüfuzlu imtahan mərkəzləri DİM-in nəticələrini, keçirdiyi istər yerli qəbul və buraxılış imtahanları, eləcə də beynəlxalq imtahan nəticələrini etibarlı olaraq qəbul edirlər. Bu gün DİM SAT, TOEFL, İELTS, bir çox imtahanları keçirir. Həmçinin Azərbaycanda dövlət qulluğuna imtahanları keçirən bir strukturdur. Birmənalı şəkildə idarəetmədə mobilliyin və çevikliyin artırılmasına ehtiyac vardır. Həm qəbul, həm dövlət qulluğuna qəbul, müxtəlif imtahanların keçirilməsində müəyyən qədər çətinliklər yarana bilərdi. Ən mühüm məqamlardan biri DİM-in fəaliyyətinə nəzarətin həyata keçirilməsidir".

**Ekspert əlavə edib ki, müxtəlif dövlət qurumlarının nəzarətinin olması qəbul imtahanlarının formatında da dəyişikliyi qaçılmaz edir:** "Çünki indi idarəetmədə yeni platformanın olması onu deməyə əsas verir ki, biz növbəti illərdə qəbul və buraxılış imtahanlarının modellərində yenilikləri görə biləcəyik. Bunu ən vacib məqamlardan biri kimi qiymətləndirmək olar. Müşahidə Şurasının istər üzvləri, istərsə də sədri Azərbaycan təhsilində kifayət qədər nüfuza malik olan şəxslərdir. Hesab edirəm ki, biz növbəti illərdə imtahan modellərində dəyişikliyi müşahidə edə biləcəyik".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Azərbaycanın Rusiyada bloklanmış saytları nə vaxt açılacaq?

## İki ölkənin xarici işlər nazirlərinin müavininin görüşündən sonra "RİA-Novosti"nin ölkəmizdə xəbər yayımı bərpa olundu

**Azərbaycanda Rusiyanın Dövlət İnformasiya Agentliyinin - "RİA-Novosti"nin saytı açılıb. 2022-ci ilin iyununda "RİA-Novosti" Qarabağdakı keçmiş separatçı rejimin "dövlət naziri" Artak Beqlaryanla müsahibə dərc etdikdən sonra bu KİV-in saytı bağlanmışdı.**




Bakıda bu nəşr Rusiyanın dövlət KİV-nin Azərbaycanın ərazi bütövlüyünə hörmətsizliyi kimi qiymətləndirilib.

Bakı diplomatik kanallar vasitəsilə rəsmi etirazını bildirib, bundan sonra "RİA-Novosti"nin saytından Beqlaryanın müsahibəsi silinib, lakin agentliyin internet resursuna giriş bağlı olaraq qalıb.

İyulun 23-də Moskvada Rusiya və Azərbaycan XİN başçılarının müavinləri - V.Qruşko və S.Şərifovun görüşü keçirilib. "Tərəflər Cənubi Qafqazda və qonşu regionlarda cari vəziyyəti müzakirə ediblər. Aİ və NATO məsələləri, ATƏT-də vəziyyət və Avropa Şurasının regional vəziyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Qarşılıqlı maraq doğuran bir sıra ikitərəfli və beynəlxalq mövzulara toxunulub.

Görüş Rusiya-Azərbaycan müttəfiqliyinin ruhuna uyğun ənənəvi dostluq və etimad mühitində keçirilib", - deyə RF XİN-in məlumatında bildirilir.

Yada salaq ki, Azərbaycanın da bir neçə saytı Rusiyada bloklanıb. Bəs onların taleyi necə olacaq?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər 22 fevral 2022-ci il tarixində imzalanmış "Müttəfiqlik, qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməyə söykənir və bu gün əsas istiqamətləndirici sənəd kimi bu bəyannamə götürülür. Bu bəyannamənin içərisində həm də informasiya sahəsində təhlükəsizliyin formalaşdırılması yönündə də bir sıra məqamlar yer alır: "Ötən dövr ərzində münasibətlərdə bir sıra çətinliklər, anlaşılmaz məqamlar da olmuşdur və onların başında məhz media sahəsində olan problemlər də yer alırdı. Azərbaycan ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin "dövlət naziri" Artaq Beqlaryanla "RİA Novosti"nin müsahibəsinin yayılması xüsusi diqqət çəkirdi və bu məqamı nəzərə alaraq Azərbaycanda Rusiyanın "RİA-Novosti" İnformasiya Agentliyinin saytı bloklanmışdı. Bu, çox doğru bir qərar idi, Azərbaycanın milli maraq və mənafelərinə xələl gətirən yanaşmaların qarşısının alınması labüd idi. Bu gün həmin saytın yayımına şərait yaradılması Rusiya ilə Azərbaycan arasında keçirilən müxtəlif səviyyələrdə məsləhətləşmələr, görüşlər nəticəsində əldə olunmuş razılaşmaya uyğundur. Bakı ilə Moskva arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Bu da əldə olunan razılıqların bir nəticəsidir. Qarşılıqlı olaraq biz həm də Rusiyanın "Rosskomnadzor" tərəfindən Azərbaycan saytlarının blokdan çıxarılmasını müşahidə edə bilərik. Səhv etmirəmsə, bir sıra Azərbaycan saytları da Rusiyada açıq istifadədə deyil. Bu problem də paritet əsasında öz həllini tapmalıdır. Azərbaycanın həmin saytlarına da Rusiya normal yayım şəraiti yaratmalıdır. Düşünürəm ki, belə də olacaq. Bunu da Rusiya-Azərbaycan münasibətlərində anlaşılmaz məqamların arxada qalması kimi səciyyələndirə bilərəm".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Prezident Zəfər parkında

**Prezident İlham Əliyev iyulun 24-də Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.**

“PMD Projects” şirkətinin direktoru Nəriman Topçubaşov parkda görülən işlər barədə dövlət başçısına məlumat verib.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.



Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.



# Şuşa Zirvəsindən ucalan həqiqətlər...

**Azərbaycanın ürəyi, Qarabağın üzük qaşı Şuşa şəhəri bugünlərdə daha bir mühüm tədbirə ev sahibliyi etdi. 2-ci Şuşa Qlobal Media Forumu üç gün ərzində dünyanın 50-dən artıq təmsilçisinin həqiqətləri eşitməsi üçün çox ciddi bir platforma oldu.**

Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusuna həsr olunmuş forumda olduqca vacib və əhəmiyyətli mesajlar verdi. Dövlətimizin başçısı Cənubi Qafqaz regionunda tarixi transformasiya proseslərinin baş verdiyini, ənənəvi ittifaqların bir qədər zəiflədiyini, yeni əməkdaşlıq formatlarının meydana gəldiyini deməklə iştirakçıları, həmçinin onların simasında ayrı-ayrı ölkələrin diqqətini regionla bağlı yeni situasiyanın yarandığına cəlb etmiş oldu. Ölkə rəhbərinin bununla Qafqaz Evi ideyasını dolayı şəkildə yenidən gündəmə gətirdiyini söyləmək olar. Prezident İlham Əliyev bu yanaşma ilə kimin gerçəkdən sülh istədiyini, kimin revanşa, yenidən qan-qadaya can atdığını aydın diplomatik dillə ifadə etdi. Qafqazın lideri əminliklə bildirir ki, regionun xalqları özlərini təhlükəsiz hiss edir, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb. Bu, həm də dövlət başçımızın təhlükəsizlik çətirini yalnız Azərbaycanın deyil, bütövlükdə Qafqazın üzərində qaldırmaq əzmində olduğunu nümayiş etdirir. Əslində cənab İlham Əliyevin hədəfləri daha geniş spektri əhatə edir, qlobal mənada sülhün təminatı istiqamətində təşəbbüsləri ilə, Qəzzadan tutmuş Ukraynaya, oradan Fransa istilası altında əzilən bölgələrə, Afrikaya, vətəndaş toqquşmasından əziyyət çəkən İslam ölkələrinədək. Azərbaycan Prezidenti dinindən, irqindən asılı olmayaraq, bəşəriyyətin hər bir cinahında yaşayan insanların əmin-amanlıq içərisində yaşaması üçün təşəbbüslər göstərir, təkliflər irəli sürür, dəstək verir. Azərbaycan bəzi “sülh carçıları” kimi “sülh naminə silah” vermir - Fransa konkret nümunə - sülhün əldə olunmasından ötrü imzası qədər etibarlı olan sözünü deyir, mövqeyini ortaya qoyur, düşmən tərəflərin bir araya gəlməsi üçün Bakı platformasını təklif edir, qarşıdırmağa deyil, barışdırmağa yönəlik xarici siyasət kursunu həyata keçirir. Budur Azərbaycan dövlətinin, onun liderinin böyüklüyü.

Şuşa Zirvəsində səslənən əsas ideyaların, verilən mesajların ünvanına çatdığına şübhə etmirik. Kimlərsə özlərini korluğa, karlığa, lallığa vuracaqsa, öz işidir. Dövlətimiz öz işini davam etdirir. Ölkə başçımızın da qeyd etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik. Həmçinin Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır.

Təsadüfi deyil ki, ədaləti təkbaşına bərpa etmiş Azərbaycan bu gün işğaldan, ədalətsizlikdən, ögey münasibətdən əziyyət çəkən xalqların yanındadır, hətta dünyanın aparıcı ölkələrinin bənzər siyasətinə qarşı açıq mövqe sərgiləyir. Fransanın koloniyalarına çevrilənlərin Azərbaycana, onun liderinə pənah gətirməsi məhz bu siyasətin məntiqi nəticəsidir. Şuşa sammitində Prezident ölkəmizə, xalqımıza qarşı ədalətsiz yanaşmaların olduğunu açıq şəkildə bildirməklə həm də birilərini dərs çıxartmağa çağırdı. Bəli, bir ölkənin işğala məruz qalmasına rəğmən, o ölkəyə, xalqa qarşı əclafcasına davranışları çox gördük ötən illərdə. Amma ənənəvi qərəzli, riyakar siyasətini davam etdirənlər yenə də şərin, böhtanın, işğala can atan revanşçıların yanındadırlar. İşğalçı ordunu yenidən silahlandırmağa cəhdlər edən ölkələr Ermənistanı aqressiv siyasətə sürükləyirlər. Təsəvvür edin, İlham Əliyev Ermənistanı həm də onların şərindən, xəta-bəlasından xilas etməyə çalışır.

**Azərbaycan Prezidenti Şuşa Zirvəsində deyilməsi zəruri olan tarixi həqiqətləri açıq şəkildə bəyan etdi və ölkəmizə qarşı qərəzli siyasət yürüdənləri ifşa etməklə yanaşı, onları bir daha yanlışlıqlar etməməyə çağırdı. Sitat**: “Azərbaycan torpaqlarının işğalı 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq”. **Yaxud digər tarixi həqiqət:** “ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edibdir. Konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır”.

Bax, Azərbaycan dövləti və xalqı, Azərbaycan Prezidenti bu münasibətlər sistemində qalib gəldi, Şuşa Zirvəsində irəliləyə, suveren ərazilərinin üzərində bayrağını dalğalandıra bildi. Bir çox mərkəzləri heyrətləndirən də məhz budur, onlar düşünürlər ki, necə oldu axı, Azərbaycanın qarşısında bu qədər sədd çəkdik - təmas xəttində dəstək verdiyimiz erməni işğalçıları “Ohanyan səddi” çəkdilər, ölkə xaricində də hər yandan bir “yan sədd” çəkildi, amma İlham Əliyevin Ordusu bütün sədləri yararaq Şuşaya, Laçına... sonra da Xankəndinə, Xocalıya yetişdi, işğala və terrora son qoydu, indi də abad edir məmləkətini?! Baxırlar, heyrətlənirlər: İlham Əliyevin qalib ordusunun azad etdiyi Şuşa zirvəsində artıq neçənci dəfədir Şuşa Zirvəsi keçirilir, beynəlxalq təşkilatların, xarici ölkə diplomatlarının, jurnalistlərinin iştirakı ilə! Onlar erməni vandalizminin “əl işi”ni də görürlər, Azərbaycanın qurucu prezidentinin işlərini də! O qüvvələr heyrətdədir, amma bədnam niyyətlərdən də əl götürmək istəmirlər. Necə ki, Makron Ermənistanı silahlandırmasına bəraət qazandırmaq üçün fitnə-fəsada əl atır, guya Azərbaycan Ermənistana hansısa təhlükə törədəcəkmiş. Yazıqlar olsun, Fransa kimi dövlətin, fransız xalqı kimi xalqın başında kim dayanır, hansı düşüncə sahibi... Azərbaycan lideri Qafqazda sülhün təminatını məmnunluqla bəyan edir, Fransa isə...

Prezident İlham Əliyev tarix yazmağa və keçmiş, müasir tarixi də forum-forum, zirvə-zirvə xəbərsiz olanlara çatdırmağa davam edir. Həm də dərs keçir. Dərsini bilməyənlər, olanlardan dərs götürməyənlər “sinifdə qalacaq”. Odur ki, öyrənsinlər! Həm ləyaqətli müharibə aparmaq qaydalarını, həm də sülhü necə təmin etməyi: ucalıqda Ali Baş Komandan, Prezident İlham Əliyev nümunəsi var! Ondan öyrənmək heç də gec deyil! Öyrənib, tətbiq etsələr, qısa zaman kəsiyində bəşərdə silahlar susar, top səsləri kəsilər. Necə ki, Azərbaycan Prezidenti bəyan edib: “Bundan sonra Şuşanın səmasında barıt qoxusu olmayacaq, top səsləri eşidilməyəcək”.

Hüseyn Cavid necə demişdi:

*“Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü”.*

İlham Əliyev bu gün təkcə Yer üzünü deyil, həm də Göy üzünü xilas formulu təklif edir!

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

# Avropa İttifaqı “erməni qullar”a viza verir

## Ekspert: “Ermənilərin bu gün yaşadıqları viza eyforiyasını bir vaxt eynilə gürcülər yaşayırdı, sonda nə oldu?”

**Ermənistan mətbuatı, xüsusən də hakimiyyətin təbliğat maşını Aİ ölkələri XİN rəhbərlərinin Ermənistanla viza rejiminin liberallaşdırılması barədə dialoqun başlanmasını Paşinyan komandasının möhtəşəm nailiyyəti kimi təqdim etməkdədir.**

Viza liberallaşdırılması ilə bağlı danışıqların başlaması məsələsi isə Aİ-yə inteqrasiya proqramında fövqəladə uğur kimi xalqa sırınır. Viza rejiminin liberallaşdırılması məsələsi ekspertlərin və rəsmilərin sözlərinə görə, iki il ərzində və ya iki ildən sonra baş tuta bilər. Aİ Şurasının məlumatında qeyd edilir ki, Ermənistan vətəndaşları üçün viza öhdəliklərinin ləğvi imkanlarına yalnız standartlar tam şəkildə tətbiq edildikdən sonra baxılacaq. Bax erməni siyasətçilərinin, rəsmilərinin nəzərdən qaçırdığı maddə də budur. Söhbət hansı standartlardan gedir, bu standartların tam şəkildə tətbiq edilməsi üçün Ermənistana neçə il, neçə ay vaxt lazımdır? Əslində erməni cəmiyyəti və siyasi elitası məhz bu sualların cavabını tapmalı, onlar barədə xalqı məlumatlandırmalıdır. Yaranan mənzərə isə onu göstərir ki, eyforiyaya qapılan siyasilər artıq özlərini Aİ-nin tam hüquqlu üzvü sayırlar. Bu isə illüziyadan başqa bir şey deyil. Əslində Avropa ilə Ermənistan arasında viza liberallaşması üzrə dialoqun başlaması erməni cəmiyyəti üçün total ağır nəticələrə səbəb olacaq. İlk olaraq söyləmək lazımdır ki, viza rejiminin liberallaşdırılması Ermənistanın sürətlə boşalması ilə nəticələnəcək. Ermənistandakı işsizliyi, məmur özbaşınalığını, korrupsiyanı, iş yerlərinin hakim komandanın sülaləsi tərəfindən zəbt edilməsini, müharibədəki acı məğlubiyyətin vurduğu psixoloji sarsıntını da nəzərə alsaq, rəqəmlərin hansı qorxunc həddə çatacağını ehtimal etmək olar. Qısacası, Gürcüstandakı rəqəmlər Ermənistandakı rəqəmlərin kölgəsində qala bilər.

**Sabiq maliyyə naziri, professor Fikrət Yusifov mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, əslində biz bu fakta sevinməliyik:** “Çünki Azərbaycan Ordusunun 44+1 gündə Qarabağ problemini uğurla həll etməsindən sonra erməni toplumunun böyük əksəriyyəti Ermənistanı mümkün qədər tez tərk edib, Avropa ölkələrinə, ABŞ-a getmək istəyir. Bu həm də tarix boyu köçəri həyatı yaşamağa adət etmiş bir xalq üçün bir sürpriz olacaq. Əgər ermənilər Ermənistanı yaxşı gələcəyi olan bir dövlətə çevirmək istəyirlərsə, o halda bölgədə Azərbaycan və Türkiyə ilə dil tapmalıdılar. Bu bölgədə onların yaşaması və dövlətlərinin dövlətlər sırasında qalması üçün bu yeganə yoldur. Ermənilərin bu gün yaşadıqları viza eyforiyasını bir vaxt eynilə gürcülər yaşayırdı. Bəs sonda nə oldu? Əgər nəzərə alsaq ki, gürcülərdən fərqli olaraq ermənilər nağıllara daha çox meylli xalqdır, o halda Paşinyan hakimiyyətinin yeni "vizasız Avropa" nağıllarının bu xalqda hansı yaxşı eyforiya doğurduğunu yaxşı anlamaq olar. Qarşıda vizasız rejimi əldə etməyin şərtləri, qaydaları olacaq. Heç şübhəsiz, bu şərtlərin bəzilərini məğlub Ermənistan qonşularının razılığı olmadan reallaşdıra bilməyəcək, buna cəhd etdikdə isə bölgədə böyük bir qarşıdurma yaranmış olar ki, bundan da daha çox Ermənistan zərər görər. Bir sözlə, indi ermənilər onları ağır məğlubiyyətdən sonra sevindirə biləcək hər hansı bir “uğurun” axtarışındadılar və deyəsən, Qoca qitə ermənilərin bu zəif yerlərindən məharətlə yararlanmaqda qərarlıdır".

**Orta Doğu Araşdırmaları Mərkəzinin sədri Sədrəddin Soltan da bizimlə söhbətdə dedi ki, son dövrlər Ermənistanda baş verən hadisələr bir-biri ilə bağlıdır:** “İyulun 22-də Avropa İttifaqı Şurası Avropa Sülh Fondundan (EPF) Ermənistan Silahlı Qüvvələrinə 10 milyon avro dəyərində yardım paketinin ayrılmasını təsdiqləyib. Bildirilib ki, yardımın məqsədi Ermənistan Silahlı Qüvvələrinin maddi-texniki imkanlarını artırmaq, böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinin yaxşılaşdırılmasına töhfə verməkdir. Eləcə də Ermənistan vətəndaşları üçün Avropa İttifaqına səyahət vizası liberallaşdırıldı. ABŞ-ın Avropa komandanlığı "Eagle Partner2024" çərçivəsində Ermənistanla kütləvi iğtişaşlara qarşı birgə hərbi təlim keçirir. Bildirilib ki, bu təlim yüksək intensivlik şəraitində əməkdaşlıq etmək və birgə işləmək bacarığını nümayiş etdirir, eyni zamanda hazırlığı, cavabdehliyi və qarşılıqlı fəaliyyət qabiliyyətini artırır. Pentaqonun nümayəndəsi isə Ermənistan Müdafiə Nazirliyində oturub. ABŞ-ın Beynəlxalq İnkişaf üzrə Agentliyinin (USAID) başçısı Samanta Pauer də bugünlərdə Ermənistanda ikigünlük səfərdə olub. O, bu ölkədə baş nazir Nikol Paşinyan da daxil olmaqla, müxtəlif görüşlər keçirib. Səfərdən sonra yaydığı videomüraciətdə isə qeyd edib ki, ermənilərlə danışanda əsas diqqət müqavimətin qurulmasına, ərzaq təhlükəsizliyi, enerji dayanıqlılığının artırılmasına yönəlib. Onun sözlərinə görə, ABŞ-la Ermənistan arasında hər gün daha da güclənən müasir və davamlı tərəfdaşlıq nümunəsi yaranır. Qeyd etdiyim bu faktlar Ermənistanın yeni bir mərhələyə hazırlandığından xəbər verir. Hərbi sahədə kütləvi iğtişaşlara qarşı hazırlıq onu deməyə əsas verir ki, bu ölkədə gec-tez vətəndaş müharibəsi, yaxud kütləvi etiraz aksiyaları keçirilə bilər. Elə Avropa İttifaqının ayırdığı 10 milyon avro məbləğinin “böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinə” yönələcəyi də Ermənistan daxilində bir savaşın, qarşıdurmanın olacağı ehtimalını artırır. Çünki rəsmi İrəvanın özünü “dəli oğlan” kimi aparmasını Moskva hələ seyr edir. Rusiya rəsmiləri Ermənistana cızığından çıxmamaqla bağlı xəbərdarlıq edir.

Odur ki, iğtişaşlara qarşı hazırlıq, fövqəladə hallarda mülki sakinlərin müdafiəsinin təşkili və viza liberallaşdırılması məsələləri rebusa daha çox oxşayır. Bunlar biri-biri ilə bağlı məsələlərdir. Fikrimizcə, bu sıralanmanın açması belədir: Ermənistanda iğtişaşlar baş verəcəyi halda mülki əhalinin müdafiəsi məqsədilə viza veriləcək ölkədən təxliyəsini təşkil etmək".

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**




# Avropa Sülh Fondu müharibə sponsoru rolunda

## Ermənistana 10 milyon avro dəyərində hərbi yardımın ayrılmasını başqa necə izah etmək olar...



**Məlum olduğu kimi, Avropa İttifaqı (Aİ) Ermənistana 10 milyon avro dəyərində hərbi yardımın ayrılmasını təsdiqləyib. Amma reallıq budur ki, Avropa Sülh Fondunun xətti ilə Ermənistana ayrılan yardım regionda sülh prosesinə ciddi xələl gətirir. Bunun fərqində olmaq istəməyən Avropa isə bildirir ki, yardımın məqsədi Ermənistan Silahlı Qüvvələrinin logistik gücünü artırmaq, böhran və fövqəladə vəziyyətlərdə dinc sakinlərin qorunmasını yaxşılaşdırmaqdır.**

Aİ-nin xarici siyasət rəhbəri Jozep Borrel isə məsələyə belə yanaşır: “Təhlükəsizlik bizim Ermənistanla qarşılıqlı münasibətlərimizdə getdikcə daha çox əhəmiyyət kəsb edən elementdir”. Ermənistan yardımın təsdiqlənməsini alqışlayıb, xarici işlər naziri Ararat Mirzoyan bunu Ermənistan-Aİ tərəfdaşlığında çox vacib mərhələ adlandırıb. Müdafiə naziri Suren Papikyan Aİ-yə ölkəsinə ilk hərbi yardıma görə təşəkkür edib. Rəsmi Bakı, gözlənildiyi kimi, məsələyə sərt reaksiya verib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bu xüsusda bildirib: “Fransa tərəfindən Ermənistanın "Bastion" çoxməqsədli zirehli avtomobilləri və “Sezar” özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətində atılan addımlardan sonra Avropa İttifaqının Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır, regionda gərginliyin artmasına xidmət edir. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə “bölücü xətlər” yaratmaq siyasətinin təzahürüdür. Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək. Avropa İttifaqı Şurası tərəfindən verilmiş bu qərara qətiyyətlə etiraz edir, göstəriləcək yardım barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözləyirik. Aİ bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır. Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək". Onu da xatırladaq ki, Aİ bu ilin əvvəlində sözügedən yardımın təsdiqlənməsi ilə bağlı hərəkətə keçib. Apreldə bəlli olub ki, Macarıstan bu qərarı bloklayır, oxşar yardımın Azərbaycana da ayrılmasını tələb edir. Bu ayın əvvəlində isə diplomatik mənbələr “Azatutyun” radiosuna bildirib ki, Aİ Azərbaycanda minatəmizləmə fəaliyyətini maliyyələşdirməyə razılıq verəndən sonra Macarıstan da vetonu qaldırıb. Amma istənilən halda Azərbaycan Aİ-nin bu addımını heç bir halda ədalətli yanaşma kimi qiymətləndirmir. Ümumiyyətlə, son illərdə Aİ-nin bir sıra strukturları, o cümlədən bəzi Avropa ölkələri regionda Ermənistan mərkəzli bir siyasət yürüdürlər. Ekspertlər hesab edir ki, Avropa İttifaqı bu kimi qərarlarla regionda öz geosiyasi maraqlarını təmin etmək, regionu Rusiya ilə geosiyasi qarşıdurma meydanına çevirmək istəyir. Bunun üçün də Ermənistan platsdarm kimi istifadə olunur. Təbii ki, mövcud tendensiya davam etsə, Ermənistan mərkəzli siyasət yürüdülsə, bu, regionda davamlı sülhün təmin olunmasına deyil, əksinə, yeni hərbi-siyasi eskalasiyanın yaranmasına, bölgədə bölücü xətlərin ortaya çıxmasına səbəb olacaq.

❑ **“Yeni Müsavat”**



# Sapı özümüzdən olan balta

Zamin HACI
zaminhaci@gmail.com

**Əlbəttə, anlayıram, bu tema bizi parlament seçkilərindən, ölkə gündəmindən ayırır, lakin mahiyyətcə o qədər ikinci dərəcəli, məişət hadisəsi deyildir. Ona görə xalq mövzunu hərtərəfli müzakirə edir, hər gün yeni videolar yayılır. Birinci gün çəkiliş öndən olmuşdu, xalq artisti xəstəxanaya hücum edirdi. İkinci günkü videoda xəstəxana arxa planda qalır, giriş qapısı görünürdü. Güman edirəm sağ və sol, hətta bəlkə yuxarıdan çəkilişləri əldə edəcəyik.**

Niyə də olmasın? Dəqiqləşdirə bilmədiyim bilgiyə görə, hadisə günü "Azərsat" peykimiz "Medera" hospitalın üzərindən uçurmuş. Biz peyk çəkilişlərinə baxmaq istəyirik. Bütün rakursları görməliyik. Demokratiya elə bu deyildirmi? Hər bir baxış bucağı işıqlandırılmalıdır.

Yapon yazıçısı Akutaqava Rünoskenin (maraqlıdır ki, onun adı yaponca elə "Ağadadaş" mənasını verir) bir hekayəsi var, orada meşədə qətl törədilir, məhkəmədə qətlin müxtəlif versiyaları üzə çıxır. Ən azı 4 qatil "tapılır", hamısının da dediyi doğru alınır. Hətta axırda mərhumun ruhunu çağırırlar, o isə beşinci versiyanı irəli sürür. Müəllif bununla demək istəyir ki, dünyada həqiqət-zad yoxdur, heç atdanıb-düşməyin, başınızı aşağı salın, çörəyinizi qazanın.

İndi biz nəzarətçinin, xalq artistinin, balta satanın, yaralı tibb bacısının mövqeləri ilə tanışıq. Qalır bircə skameykada oturub arxayın söhbətləşən cütlük. Rəhmətliyin uşağı sanki fil qulağında yatmışdı. Böyürlərində baltalar göydə uçur, baş bir yana, leş bir yana, az qala üçüncü dünya savaşı başlayacaq, bunlar isə rahat gaplaşırdılar, axırda heç zad olmamış kimi durub getdilər. Mən onların kimliyini bilmək istəyirəm. Əsl sağlam vətəndaşlar onlardır. Nümunəvi adamlardır. "Kişinin yanında baş kəsərlər" məsəlini onlar yaradıblar.

Üçüncü dünya savaşı yazdım, ağlıma gəldi: bəlkə Ağadadaş müəllim elə dünya savaşına hazırlaşır? Çünki müdriklərdən kimsə deyibdir ki, üçüncü dünya savaşının hansı silahlarla olacağını dəqiq bilmirəm, ancaq dördüncü savaş baltalarla olacaqdır. İşarə vurub ki, nüvə savaşından sonra biz təzədən daş dövrünə qayıdacağıq. Həqiqətən, Putinin beyni çönsə, məlum raketlər uçuşsa, dünya mağaraya çevriləcək və o zaman balta atmaq məharəti olan yaşayacaq. "Könlüm qəmi neylər" deməklə deyil ki. Hazırlaşmaq lazımdır. Sənətkarın ilk atışı yaralı sayına görə o qədər pis deyildir.

Başqa yöndən, xalq artistinin xalq arasına şortikdə çıxması - lap idman tədbiri olsa da - həm etik, həm estetik baxımdan gözəl görünmürdü. Xalq belə sənətkardan hansı dərsi almalıdır? Sabah hamımız şortikdə küçəyə çıxaq, bəs milli dəyərlər? Bəs milli mentalitet? Üstəlik, belə müqəddəs ayda. Camaat öz alnını yarır, bu isə başqasının alnını yarmaq fikrindəymiş.

Mövzu açılmışkən, bir vacib məsələni, detalı da qeyd edim, oxucularımıza agah olsun: əgər xalq artistinin "həci"si, sponsoru üzərində qara buludlar toplaşırsa, onun özünə də hörmət azalır, bunu biləsiniz. Xalq məhəbbəti, əlbəttə, vardır, ancaq kimə lazımdır? Xalq məhəbbəti quru olur, onu çörəyin arasına qoyub yemək bir yana, heç qulağa dərman sürtməyə də yaramır. Əsas "həci"dir. Ya rəbb, sən heç bir xalq artistimizi həcisiz və sponsorsuz qoyma! Yoxsa biabırçılıq olur, adamı küçədə sürüyürlər, yetən ora-burasına təpik atır. Sponsorun bərkgedən vaxtları olardı, görüm orada kim kimə təpik atırdı. Nəzarətçinin sağ tikəsi qulağı boyda olardı. Əhvalatı yazan müxbirlərin özünün videosu çıxardı. Eh, gidi zəmanə, oxun qoymuş kəmanə...

Sovet vaxtı 15 müttəfiq respublikanın kollektiv-rəsmləri hazırlananda Azərbaycan SSR-ni təmsil edən personajların kişi hissəsi adətən bığlı, kök bir adam olurdu. Yaşlı oxucular xatırlayar, eynilə bizim Ağadadaş müəllim!

Sözü ona gətirirəm ki, sənətkarın simasında uca millətimizi simvollaşdıran nəsə xarakterik, bənzərsiz cizgilər vardır. Bir az da açıqlasam, Yer kürəsində bu üz quruluşu, bu insan tipi ancaq azərbaycanlılara xasdır. O mənada, sənətkarı əfv eləmək lazımdır. Təklif edirəm barışıq olsun.

Onsuz da bizi istəməyənlər çoxdur.




# Ermənistan müstəqilliyini belə itirir: güc nazirləri ABŞ-ın nəzarətində

## Güc strukturlarını Rusiyanın təsir dairəsindən "təmizləmək qərarı" İrəvanı yeni boyunduruğa sürükləyir

**Pentaqonun Ermənistan Müdafiə Nazirliyindəki nümayəndəsi təyinatı ətrafında müəmmalar çözülməkdədir. Bir neçə gün əvvəl İrəvanda səfərdə olan ABŞ dövlət katibinin müavini Uzra Zeya bu məlumatı təsdiqləsə də, əlavə təfərrüatlar üçün Amerika səfirliyi ilə əlaqə saxlamağı məsləhət görüb.**

Eyni zamanda Zeya vurğulayıb ki, Ermənistan-Amerika münasibətlərində strateji tərəfdaşlığın prinsipcə yeni mərhələsi başlayır. Erməni jurnalistlərin sorğusuna cavab olaraq ABŞ səfirliyi bildirib ki, söhbət Pentaqon tərəfindən deyil, Dövlət Departamenti tərəfindən maliyyələşdirilən qlobal müdafiə islahatları proqramının məsləhətçisindən gedir. ABŞ səfirliyinin nümayəndəsinin sözlərinə görə, bu şəxs mülki məsləhətçi kimi Ermənistanın müdafiə institutlarının gücləndirilməsinə dəstək verəcək.

"ABŞ Dövlət Departamentinin Qlobal Müdafiə İslahatı Proqramı strateji səviyyəli məsləhət dəstəyi göstərməklə, dünya üzrə tərəfdaş ölkələrə daha davamlı, effektiv və hesabatlı təhlükəsizlik institutlarının qurulmasında dəstək verir", - ABŞ-ın İrəvandakı səfirliyi bildirib.

Həmçinin qeyd edilib ki, adı hələlik açıqlanmayan məsləhətçi Ermənistanda çalışacaq və "ABŞ səfirliyi və Ermənistan Müdafiə Nazirliyi ilə daimi işgüzar əlaqələri" davam etdirəcək. "Birləşmiş Ştatlar məsləhət dəstəyi vasitəsilə Ermənistana təhlükəsizlik idarəçiliyini təkmilləşdirməyə kömək etmək niyyətindədir ki, bu da öz növbəsində Ermənistan-Amerika münasibətlərinin möhkəmlənməsinə kömək edəcək", - səfirlik jurnalistlərin sorğusuna yazılı cavabda bildirib.

Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, ABŞ nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyinə müşavir statusunda gəlməsi ikitərəfli əməkdaşlığın yeni formatıdır və onun fikrincə, bu, son nəticədə Ermənistana Amerika silahlarının satışına gətirib çıxara bilər. Nersisyan təsdiqləyib ki, ABŞ-dan hücum silahlarını əldə etmək "uzun və mürəkkəb prosesdir, lakin dinamik inkişaf var". Erməni mediası bu məsələdə iki yerə bölünüb. Bəziləri yazır ki, təkcə Müdafiə Nazirliyi deyil, həm də Daxili İşlər Nazirliyi ABŞ-ın nəzarətinə keçib. Bəzi media orqanları isə Amerika ordusunun nümayəndəsinin Müdafiə Nazirliyində olması faktını Ermənistanın Qərb təhlükəsizlik sisteminə inteqrasiyası kimi qələmə verməyi hökumətin blefi hesab edir. Ermənistan-Amerika hərbi təlimləri Rusiya ilə Qərb arasında qlobal qarşıdurmanın yalnız bir zərrəsidir. ABŞ KTMT-dən çıxmaq və Ermənistan-Rusiya strateji əməkdaşlığını zəiflətmək müqabilində İrəvana heç nə təklif etmir" yazanların sayı da çoxdur. Ermənistan "irəli addımlarla" Ukrayna variantına doğru gedir, yoxsa hələ İrəvanı daxildən möhkəmlətlətmə prosesi gedir?

**Siyasi təhlilçi, sabiq deputat Sona Əliyeva hesab edir ki, İrəvandakı hakimiyyət bütün güc strukturlarını Rusiyanın təsir dairəsindən tamamilə təmizləmək qərarı verib:** "Ermənistan mediasının yazdıqlarına inansaq, hazırda işğalçı ölkənin Müdafiə və Təhlükəsizlik nazirlikləri ilə yanaşı, Daxili İşlər Nazirliyi də ABŞ-ın nəzarətinə verilir. Bu o deməkdir ki, İrəvandakı hakimiyyət bütün güc strukturlarını Rusiyanın təsir dairəsindən tamamilə təmizləmək qərarı verib. Yəni bu başlanğıcdır. Güc strukturlarındakı "rus yaraları" təmizləndikdən sonra İrəvan ABŞ-ın dəstəyi ilə digər qurumlara da əl gəzdirəcək. Bir sözlə, Ermənistanda Rusiya izi sakit və səssiz yolla təmizlənəcək. Başqa variant olduqca təhlükəlidir. ABŞ nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyinə müşavir statusunda gəlməsi İrəvanın Qərbin qucağına oturma strategiyasının işğalçı ölkə üçün alternativsiz olmasından qaynaqlanır. Bu addımla Paşinyan hakimiyyəti ordudakı rus qalıqlarını silib atacaq. Milli Təhlükəsizlik İdarəsindəki rus agentlərini də neytrallaşdırmağa çalışacaq. Bununla da Ermənistanda uzunmüddətli idarəçilik islahatlarının təməli qoyulur. Növbəti illərdə Fransadan da nümayəndələr müşavir postunda təmsil oluna bilər. Məsələnin başqa bir tərəfi ondan ibarətdir ki, İrəvan hakimiyyəti bu yolla ordunu NATO sisteminə uyğunlaşdırmaq istəyəcək. Bunun davamı olaraq Paşinyan hökuməti NATO-dan, ABŞ-dan yeni silahlar almağı və arsenalını modern silahlarla zənginləşdirməyi düşünür. Nikol Vovayeviç bununla ölkəsinin müdafiə qüdrətini artırmaq niyyətindədir. Sözsüz ki, Qərbin bu həmlələri qarşısında Kreml səssiz dayanmayacaq. Rusiya da ABŞ-ın "səssiz həmlələri"nə qarşı adekvat cavablar verəcək. Bu isə Ermənistanda yeni iğtişaşlara, dövlət və hakimiyyət böhranına gətirib çıxaracaq. Çünki Rusiya dəfələrlə bəyan edib ki, strateji təhlükəsizlik məsələlərində Moskva zarafatı sevmir. ABŞ öz nümayəndəsini müşavir göndərməklə həm də Hindistan və İran amilini neytrallaşdırmaq niyyətindədir. Birləşmiş Ştatlar Ermənistanda möhkəmlənməklə İranın blokadasını daha da dərinləşdirmək istəyir. Eyni zamanda silah satışı adı altında Hindistanın Cənubi Qafqaza ayaq açmasına, burada möhkəmlənməsinə öz kəskin reaksiyasını ortaya qoyur. Bir sözlə, İran və Hindistana zərbə yenə də başını sığalladıqları "kiçik bacılan" Ermənistan tərəfindən gəlir. Düşünürəm ki, yaxın həftələrdə Ermənistan üçüncü ölkələrin əli ilə yenidən qan çanağına dönə bilər".

**Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı Ermənistan ətrafında yaşananları Rusiyanın bağışlamayacağını düşünür:** "Ermənistan Müdafiə Nazirliyinə Pentaqonun nümayəndəsini təyin etməsi həm Rusiyaya, həm də Azərbaycana təzyiqdir. Bununla demək istəyirlər ki, Amerika Ermənistanı pulsuz silahlandıra bilər. Zeya təsadüfən demir ki, Amerika-Ermənistan münasibətlərində strateji tərəfdaşlığın yeni mərhələsi başlayır. Amerika Ermənistanda güc strukturlarına öz adamlarını təyin etməklə, 30 il ərzində Köçəryan-Sərkisyan cütlüyünün oturuşmuş generalları və hərbi kontingentini zərərsizləşdirmək istəyir. Bəzən generallar Paşinyanın əmrlərinə tabe olmurlar. Əlbəttə, Ermənistanda baş verənlər Rusiyanın çox böyük qəzəbinə səbəb olacaq. Rusiya ilə Qərb arasında mövcud qarşıdurma pik həddə çatıb. ABŞ bütün cəhdlə çalışır ki, Ermənistan KTMT-dən çıxsın. Bununla bağlı dəfələrlə Paşinyan və digər rəsmi şəxslər bəyanatlar verib. Razıyam ki, ABŞ Rusiya üçün Ukrayna kimi Ermənistanı da qurban versin. Ancaq Ermənistan Ukrayna deyil. Rusiyanın Ermənistanda minlərlə əsgəri var. Ən kritik məqamda Putin öz əsgərinə əmr verə bilər. Amerika Ermənistanı düşünürsə, ilk növbədə Azərbaycanla sülh sazişinin əldə olunmasına nail olmalıdır. Alternativ yol ermənilərı fəlakətə aparacaq".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"

# Pul qazanmaq üçün namizəd olanlar - adları açıqlanacaq

## Seçkiyə qatılan partiya sədrləri danışdı:

## "Beləlləri prosesi kölgələyə bilməzlər..."

**Bu il sentyabrın 1-nə təyin olunmuş seçkilərin imzatoplama kampaniyası hazırda davam edir. Tanınan, tanınmayan, şanslı, şanssız xeyli adam prosesə qoşulub. Maraqlıdır ki, hətta bir çoxları seçilmək üçün zərrə şansa malik olmadıqları və seçilməyəcəklərini bu başdan bildikləri halda, yenə də seçkiyə qatılıblar. Niyə bu addımı atıblar? Əksəriyyət bu qəbildən olanlar gənc də deyillər ki, deyəsən, özlərini tanıdıb arenaya çıxmaq istəyirlər. Əksəriyyəti deyilən kimi "qos-qoca", saç-saqqal ağartmış, saç tökmüş adamlardır. Bəs niyə gedirlər? Tanınmış politoloqlarımızdan biri bu yöndə araşdırmalar apardığını deyib. "Hələ tam adlar açıqlamayacağam. İmza kampaniyası bitsin, görək kimlər qalır, kimlər gedir". Politoloq əmindir ki, heç bir şansı olmayan, tanınmış, seçilməyəcəyini bu başdan bilən iddialılar ancaq həmin dairədəki varlı və keçərli namizədlərdən pul qoparmaq üçün seçkiyə qatılıblar.**



Politoloq avqustun ilk on günlüyündə, yəni namizədlərin qeydiyyat mərhələsi bitəndən sonra araşdırmalarını ictimaiyyətə təqdim edəcəyini bildirib (mənbə: Bakı-xeber.com).

Müxtəlif seçki dairələrindən deputatlığa namizədliyi irəli sürülmüş partiya sədrlərinin gündəmə gətirilən məsələyə münasibətini, onların da dairəsində dələduz namizədlərin olub-olmadığını öyrənməyə çalışdıq.

**AĞ Partiyanın sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, bu, bir az subyektiv məsələdir. Kim nə üçün seçkidə namizədliyini verir, kimin məqsədi nədir, onu həmin şəxslərin özləri dəqiq bilirlər: "Namizədliyini irəli sürənlərin içərisində hər cür insan olur. Seçilmək istədiyi üçün seçkiyə gedən də, ola bilsin alver eləmək istəyən də, təcrübə yığmaq istəyən də, özünü tanıtmaq istəyən də ola bilər. Nüfuzu olmayıb seçkiyə sırf varlı namizəddən pul qoparmaq üçün qatılanlar varsa, imkanlı namizəd niyə nüfuzu olmayana pul verməlidir ki? Burada bir məntiq də yoxdur. Odur ki, bu məsələlərin müzakirəsi yanlışdır. Dünyanın bütün ölkələrində əslində "feyk namizədlər" olur. Bu, həm də sübutu elə də asan olmayan bir məsələdir. Mən bu günə qədər xeyli seçkidə iştirak etmişəm. Şəxsən öz dairəmdə heç bir namizədə o cür yanaşmamışam. Əgər adam namizədliyini verirsə və imzalarını toplayıb qeydə alınırsa, qalanları onun şəxsi işidir".

**Azad Vətən Partiyasının sədri Akif Nağı bildirdi ki, adamlar seçkilərə müxtəlif niyyətlərlə qatılırlar:** "On illərdir seçkilərdə iştirak edirik, hər şey görmüşük orada. Amma mən istərdim ki, seçkilərlə bağlı mənfi rəy formalaşmasın. Seçkidə cılız məqsədləri üçün iştirak etmək istəyənlər həmişə olub. Dələduzlar hər yerdə var, girəvə zəlilləri məqamdan istifadə eləyib nəsə qazanmağa çalışırlar, kiminsə gözünə girməyə çalışırlar. Seçkilərdə də belə adamlar olur. Eşitdiyimə görə, bəzi adamlar da seçkiyə ona görə qatılırlar ki, maddi imkanı yüksək olan namizədlərdən nəsə qoparsınlar. Seçkilərə bu şəkildə kölgə salınması düzgün deyil. Bir dairədən nə qədər sayda namizəd olsa da, bir nəfər seçiləcək. Mənim tanıdığım adamların içərisində təcrübə qazanmaq üçün seçkiyə qatılanlar daha çoxdur. Başa düşürlər ki, birinci yeri qazanmaq çətindir, rəqiblər güclüdür, ən azından təcrübə qazanmaq olar. Partiyalardan qoşulanlar isə ən azından partiyalarının ideologiyasını təbliğ etmək, tanıtmaq üçün seçkiyə qoşulurlar. Hər kəs təbii ki, deputat seçilmir".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə qeyd etdi ki, parlament seçkilərində müxtəlif vasitələrlə başqa namizədlərdən pul qoparmaq istəyənlər həmişə olub, indi də ola bilsin var:** "Hətta sizin də tanıdığınız siyasi partiyalardakı bəzi adamların içərisində belələri az olmayıb. Konkret bu gün mənim namizədliyimi verdiyim seçki dairəsində o cür namizədlərin olub-olmadığı ilə maraqlanmamışam".

Qeydə alınan namizədlərin sayı isə hər gün artır. İyulun 24-nə olan məlumata görə, 31 nəfərin namizədliyi qeydə alınıb.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, 1200-ə yaxın müraciət var. Onların çoxu artıq təsdiq olunub. 950-yə yaxın müşahidəçi qeydə alınıb. 26 siyasi partiyanın 25-i seçkilərdə iştirak edir. Onların 600-ə yaxın səlahiyyətli nümayəndəsi qeydə alınıb.

M.Pənahov həmçinin deyib ki, ATƏT-in uzunmüddətli müşahidəçiləri seçkilərlə bağlı Azərbaycana gələcək. O qeyd edib ki, birinci nümayəndə heyəti bu ayın sonunda Azərbaycanda olacaq.

Milli Məclisə seçkilərdə qadınların fəallığının yüksəldilməsinə həsr olunan layihə reallaşdırılıb. Bu gün Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə layihəsi çərçivəsində dəyirmi masa təşkil edilib.

Mərkəzi Seçki Komissiyasının müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı əsasında gerçəkləşdirilən layihə cəmiyyətdəki aktiv mövqeyi, məqsədyönlü fəaliyyətləri günbəgün güclənən Azərbaycan qadınlarının qarşıdan gələn seçkilərdə fəallıqlarının daha da yüksəldilməsi üçün yaradılan geniş və hərtərəfli imkanların müzakirəsinə həsr olunub.

Tədbirdə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn müxtəlif layihələrin qadınların seçkilərdə azad və sərbəst fəaliyyətinin təkmilləşdirilməsi, məlumatlılığının artırılması və fəallığı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

MSK sədri Məzahir Pənahov bildirib ki, Azərbaycanda seçicilərin daha çoxu qadınlardır. O qeyd edib ki, 40 minə yaxın komissiya üzvünün də əksəriyyəti qadınlardır: "Biz səsvermə günü qadın seçicilərin aktivliyinə önəm veririk. Bu məsələdə qadınların rolu kişilərə nisbətdə daha yüksəkdi".

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində iyulun 24-dən etibarən regional seminar-müşavirələrə başlanılıb.

İlk tədbir iyulun 24-də MSK və DİN təmsilçilərinin də iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində təşkil olunub.

Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirələrdə ölkə üzrə bütün seçki dairələri dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Tədbirlərdə MSK-nın üzvləri, Komissiya Katibliyinin əməkdaşları və DİN-in müvafiq qurumlarının nümayəndələri tərəfindən Milli Məclis seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə təqdimatlar keçiriləcək, çıxışlar dinləniləcək və müzakirələr aparılacaq. Maarifləndirmə və məlumatlandırma xarakterli seminar-müşavirələr növbəti mərhələdə iyulun 25-də Gəncədə, iyulun 26-da Şəkidə, iyulun 29-da Şirvanda və iyulun 30-da Naxçıvanda keçiriləcək.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## Fuad Nəcəfli Naxçıvanda qalır, ya gedir?

**Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov 2022-ci ilin dekabrında tutduğu postdan mədəni şəkildə uzaqlaşdırılsa da, muxtar respublikanın sosial-iqtisadi həyatında ciddi dəyişikliklər baş vermədi. Naxçıvan "xan"ının ardınca bir nömrəli sələfi sayılan müavini Azər Zeynalov da istirahətə göndərildi.**

Yenisabah.az xəbər verir ki, muxtar respublikada sosial-iqtisadi problemlərin həll olunmaması mərkəzi hakimiyyətin nəzərini yenidən Naxçıvana yönəldib. Hakimiyyət muxtar respublikada ciddi islahatlar həyata keçirməyə hazırlaşır.

"Yeni Sabah" bununla bağlı sensasiya sayılacaq məlumatlar əldə edib. Hakimiyyətdəki mötəbər şəxs sayta bildirib ki, Azərbaycan Prezidentinin Naxçıvandakı xüsusi nümayəndəsi Fuad Nəcəfli ona ayrılmış "krediti" tamamilə xərcləyib qurtarıb. Buna görə də Bakı Naxçıvandakı "islahatlara" Fuad Nəcəflinin timsalında başlamaq niyyətindədir.

Mənbənin dediyinə görə, Naxçıvan ciddi dəyişikliklər ərəfəsindədir. Onun sözlərinə görə, Fuad Nəcəfli sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərindən bir neçə gün sonra tutduğu vəzifədən uzaqlaşdırılacaq. Nəcəfli ilə başlayacaq dəyişikliklər Naxçıvanda dövlətin əksər qurumlarını əhatə edəcək. Rəhbərlik etdiyi sahədə müsbət dönüş yarada bilməyən bütün vəzifəli şəxslər bir-birinin ardınca istefaya göndəriləcək.

Qeyd edək ki, son vaxtlar Naxçıvanda baş vermiş ən ciddi hadisə, iyulun 5-də Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-polkovnik Kərəm Mustafayevin tutduğu vəzifədən uzaqlaşdırılması olub.

## Nazir müavininə Bakı metrosunda vəzifə verildi

**Prezident İlham Əliyev "Bakı Metropoliteni" QSC-nin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 30 mart 2021-ci il tarixli sərəncamında dəyişiklik edib. Sərəncama əsasən, şuranın üzvü olan rəqəmsal inkişaf və nəqliyyatı nazirinin müavini Samir Məmmədov digər nazir müavini Rəhman Hümmətovla əvəz edilib.**

Yeni Müsavat
N 129 (8502) 25 iyul 2024

# Övlad qatili atalar - cəmiyyətdə qəddarlaşmanın səbəbi

## Sosioloq son günlər azyaşlılara yönəlik dəhşətli cinayətlərdən danışdı

**Son günlər ölkədə dəhşətli cinayətlər baş verib. Təkcə son 48 saatda baş verənlər bunu göstərir. Xırdalanda ərin həyat yoldaşını hündürmərtəbəli binadan atması, eləcə də əvvəllər məhkum olunan Xosrov Əhmədovun öz azyaşlı övladının boğazına bıçaq dirəyərək onu öldürəcəyini bildirməsi, Xəzər rayonunda atanın iki övladının canına qəsd etməsindən sonra özünü də öldürməsi, nəhayət, Abşeron rayonu, Saray qəsəbəsi ərazisində qardaşını öldürüb özünü binadan atması ölkə gündəmini zəbt edib. Görəsən, insanların bu cür aqressiyasının səbəbi nədir?**

Məsələ ilə bağlı danışan **sosioloq Əhməd Qəşəmoğlu** "Yeni Müsavat"a deyib ki, bu gün Azərbaycan cəmiyyəti 30-40-50 il öncəki cəmiyyət deyil, gündən-günə mürəkkəbləşib, xeyli həssaslaşıb: "Bu gün ən böyük problem də odur ki, cavabdeh qurumlar cəmiyyətin durumu ilə maraqlanmır. Bu ona bənzəyir ki, orqanizmdə bir xəstəlik var, onu müalicə etmirlər. Həmin xəstəliyi müalicə etmək, profilaktik tədbirlər görmək lazımdır. Cəmiyyət də orqanizmə bənzəyir. Bir var səhiyyə, tibb insan orqanizmini müalicə etməklə məşğuldur, sosial iş, sosialyönümlü sahələr də cəmiyyətdə gedən problemləri həll etmək üçündür. İndi birdən-birə ölkədə səhiyyəni ləğv etsək ki, həkimlər, tibb olmadan adi bir xəstəlikdən insanlar məhv olub gedər. İnsan orqanizmindən qat-qat mürəkkəb, həssas olan cəmiyyətdə gedən prosesləri başlı-başına buraxmaq olmaz. Buna məsul qurumlar, təşkilatlar var və onlar bilmirlər ki, nə iş görmək lazımdır. Onlara mən təcrübəli sosioloq kimi fikir bildirəndə başa düşmürlər ki, nə deyirəm. Onlar fikirləşir ki, məmurdursa, ağsaqqal sosioloqdan daha ağıllıdır. Halbuki o məmur mənim tələbələrim səviyyədə deyil. Mənim aspirantlarım, tələbələrim bu sahəni həmin məmurlardan qat-qat çox bilir. Yəni orqanizmi müalicə etməyəndə xəstəlik gündən-günə artdığı kimi, cəmiyyətdə də proseslərlə bağlı vaxtında diaqnoz qoymaq, problemləri həll etmək lazımdır".



**Əhməd Qəşəmoğlu bildirib ki, cəmiyyətdə proseslər mürəkkəbləşdikcə, durum daha da ağrılı şəkil alacaq:** "Cəmiyyət mürəkkəbləşdikcə, hər məhəllədə sosial işçilərin olması lazımdır ki, əhalinin durumu yaxşılaşsın. Maraqlı odur ki, Azərbaycanda xeyli pedaqojiyönlü təhsil müəssisələri, universitetlər, kolleclər sosial işçi hazırlayır. Ona görə hazırlayırlar ki, onlar xarici ölkələrdə sosial işçi hazırlandığını eşidiblər. Bizim təhsil işçiləri də fikirləşirlər ki, biz də hazırlamalıyıq. Ancaq fərq oradadır ki, xaricdə sosial işçilərdən istifadə edilir, ancaq bizdə sosial işçilər, sosioloqlar deyir ki, cəmiyyətdə bizə iş yeri yoxdur. Biz bu gün cəmiyyətdə çox vacib olan sosioloji xidmət yerinə yetirən təşkilat qurmuruq. Sonra isə deyirik ki, niyə bu proseslər baş verir? Mənim təklif etdiyim, dünyada da uğurla yayılan, Azərbaycanın xəbəri olmayan "Ahəngyol" nəzəriyyəsi var. Yaponiya, Hindistan, Çin, Amerika, İtaliya kimi ölkələrdə hər yerdə mənim məqalələrim çap olunur. Ancaq bizdə ona demək olar ki, əhəmiyyət verilmir. Mənim Almaniyada çap olunan "Sosial sistemlərin tərəqqisinin qeyri-səlis riyazi modelləri" adlı məqaləmdən bir çox ölkədə istifadə olunur. Ancaq Azərbaycanda kimə desən güləcək. Mən bu yaşda istəyirəm ki, kiməsə kömək edim. Hazırkı proseslərlə bağlı mən 15 ildir ki, dəfələrlə bu işlərin görülməli olduğunu demişəm, ancaq görmürlər. Məhz "Ahəngyol" nəzəriyyəsində də qeyd edilir ki, hər bir davranışın formalaşmasına 4 mühüm amil təsir edir. Birincisi, insanın özünün fərdi, psixoloji xüsusiyyətləri, ikincisi, mühit, üçüncü isə aldığı informasiyanın intensivliyi və məzmunu, nəhayət, dördüncüsü, üstünlük verdiyi dəyərlərdir. Bu amilləri araşdırmaqla ölkədə istənilən sosial təbəqədə istənilən davranışı tənzimləmək olar. Sosiologiya və sosial iş xidmətinə lazımi diqqət yetirilməlidir ki, belə halların qarşısı alınsın".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Taksi qiymətləri ucuzlaşacaq

## BOLT şirkəti yeni avtomobillər gətirir; işsiz qalan sürücülər avtobus sükanı arxasına necə keçə bilər?

**Azərbaycanda ilk dəfə taksi xidmətində premium avtomobillərdən istifadə olunacaq. Bu avtomobilləri ölkəyə BOLT şirkəti gətirəcək.**

Şirkətdən bildirilib ki, ekoloji təmiz avtomobillərin istifadəsi məqsədilə Azərbaycana 20-dən çox markanı əhatə edən premium elektromobil, eləcə də 300-ə yaxın sıfır emissiya səviyyəli maşın gətiriləcək. Bəs görəsən, bu təşəbbüs taksi qiymətlərinə və xidmət keyfiyyətinə müsbət təsir edəcəkmi?

Bu barədə **nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov** bildirib . O deyib ki, bundan öncə də taksi xidmətində premium avtomobillərdən istifadə edilirdi: "Azərbaycanda bu günə qədər də premium tipli avtomobillər taksidə fəaliyyət göstərib. Bunlar əsasən xarici taksi operatorları ilə çalışan fərdi vətəndaşların təşəbbüsü olub. Taksidə premium sinif maşınların olması normaldır. Bu daha komfortlu nəqliyyat vasitəsi ilə getmək istəyən vətəndaş üçün bir fürsətdir. Amma taksi dövriyyəsində, istismarda premium sinif nəqliyyat vasitələri olan kimi burada mütləq yüksək keyfiyyət və təhlükəsizlik olacaq deyə düşünmək yanlış olardı. Taksi sistemi ümumi və vahid bir sistemdir. Ona görə də düşünmürəm ki, bir neçə premium avtomobilin dövriyyəyə buraxılması ilə taksi xidməti daha keyfiyyətli və təhlükəsiz olacaq".




**Ekspert qeyd edib ki, taksi qiymətlərində sərbəst tarif olmalıdır:** "Qiymətlərin bahalaşma və ucuzlaşması məsələsinə gəldikdə isə taksi qiymətlərində sərbəst tarif olmalıdır. Bu tarif dəyişən tarifdir. Yəni tələb yüksək olduqca qiymət yüksəlir, əksinə, tələb azaldıqca qiymət də azalır. Elə buna görə də taksidə istismarda olan nəqliyyat vasitələrinin sayı artdıqca, qiymətə müsbət təsir edəcək. Yəni taksi varsa, deməli, onun qiyməti baha olmamalıdır. Əsas problem hazırda taksi qıtlığıdır".

Yada salaq ki, Azərbaycanda taksi xidməti ilə bağlı tənzimləmələrdən sonra Bakıda taksilərin sayı 2 dəfə azalıb. Bunu **rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov** ötən həftə bildirib.

O qeyd edib ki, əvvəl Bakıda 65-70 min taksi fəaliyyət göstərirdi, indi isə 35 minə yaxın taksi var: "Bu rəqəmi elektron sistem üzərindən əldə etmişik. Taksi fəaliyyətindən uzaqlaşdırılan şəxslərin məşğulluğu ilə bağlı suallar yaranır. Məşğul olmayan sürücülərin avtobusla sərnişin daşımalarına cəlb olunması üçün hazırda geniş imkanlar var. Təkcə "BakuBus" şirkətinin hazırda 1 000 nəfərdən artıq "D" kateqoriyalı sürücüyə ehtiyacı var və taksi fəaliyyətindən kənarlaşan şəxslər bu imkanları nəzərdən keçirə bilər".

Qeyd edək ki, taksi xidmətində yeniliklərin tətbiqinə başlanması ilə paytaxtda bir neçə ay əvvələ kimi ən rahat, sərfəli nəqliyyat vasitəsi olan ucuz taksilərin azalacağı və böyük bir təbəqənin işsiz qalacağı bəlli idi. İşsiz taksi sürücüləri arasında ələləri var ki, taksi idarə edərkən belə sərnişinlərlə normal davranmırdı, yol hərəkəti qaydalarına əməl etmirdi.

Maraqlıdır, taksidən kənarlaşdırılanlar avtobus sürücüsü ola bilər?

**Nəqliyyat eksperti Aslan Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd edib ki, işsiz qalan şəxslərin taleyini düşünmək lazımdır:** "Onu da nəzərə almaq lazımdır ki, işsiz qalan şəxslərin arasında qayda-qanunlara riayət etməyən, etik davranışa uyğun olmayan xarakterik insanlar olduğu üçün müəyyən narazılıq yarandı. 34 min sürücünü ailə üzvləri ilə birlikdə hesablasaq, 100 minə yaxın vətəndaş edir. Onların dolanışığı, ailə büdcəsi mühüm məsələdir. Bu sahədə islahatlar aparılmalı, müəyyən dəstək mexanizmi hazırlanaraq yenidən taksiyə olan tələbatı minimum həddə çatdırmaq lazımdır. Taksilərin minimum şərti ödəməsi vacibdir, çünki bu hadisə müəyyən bahalaşmaya və digər problemlərə səbəb olacaq".

Ekspert hesab edir ki, taksi sürücülərinin avtobus idarə etməsi üçün ilk növbədə sürücü aidiyyəti kateqoriyaya sahib olmalıdır.

❑ **"Yeni Müsavat"**

# Kennedinin prezident vədləri: "Bakıya qarşı sanksiya..."

## Siyasi şərhçi: "Biz bundan da qatı ermənipərəst liderlər görmüşük..."

**Qalmaqallı imicinə görə tanınan ABŞ prezidentliyinə müstəqil namizəd Robert Kennedi yenidən Azərbaycanı gündəmə gətirərək "Zartonk Media"ya müsahibəsində prezident olacağı təqdirdə Azərbaycana qarşı "ermənilərin Qarabağdan zorla qovulmasına" görə sanksiyalar tətbiq edəcəyini bildirib.**

Aydındır ki, ABŞ-ın mərhum baş prokurorunun oğlunun Ağ Evin Oval kabinetində kreslo tutmaq şansını heç kim ciddi şəkildə düşünmür. Bununla belə, Co Baydenin prezidentlik yarışından geri çəkildiyi xəbərindən sonra bu iyrənc siyasətçi mətbuat konfransı keçirərək bildirib ki, indi "əsas mübarizə onunla Donald Tramp arasında olacaq" və "sandıqlarda Trampı qabaqlayır". Buradan belə nəticəyə gələ bilərik ki, Kennedinin ağır çəkili Trampı və ehtimal ki, Demokratlardan prezidentliyə namizədi Kamala Harrisi məğlub etmək üçün gözlədiyi əsas vasitə erməni seçicilərin səsləridir. Bu barədə Haqqın.az yazır. Əbəs yerə deyil ki, kiçik Kennedi öz seçki kampaniyasında Amerika Erməni Milli Komitəsinin (ANCA) rəhbəri Aram Ambaryanın tezislərindən vaxtaşırı istifadə edərək Azərbaycana hücum edir. Məsələn, bu ilin yanvarında Cənubi Kaliforniyada erməni icması liderlərinin təşkil etdiyi toplantıda o, prezident olduqdan sonra "Qarabağ üzərində suverenliyi mütləq Ermənistana qaytaracağını" bildirmişdi.

Ambaryan Kennedinin bəyanatını alqışlayaraq qeyd edib ki, "erməni məsələsini prezident seçkisi kampaniyasının gündəmində saxlamaq vacibdir" və "həm hazırkı prezident Cozef Bayden, həm də onun əsas rəqibi Donald Tramp Qarabağın itirilməsinə görə günahkardır".

İndi isə kiçik Kennedi təkcə "Rusiya neftinin Avropa ölkələrinə satılması səbəbindən" Azərbaycanı sanksiyaların tətbiqi ilə hədələməklə kifayətlənmir, həm də Avropa İttifaqı ölkələrini bu sanksiyalara cəlb edəcəyinə söz verir. Yeri gəlmişkən, "Zartonk Media" internet nəşrinə müsahibəsində Robert Kennedi də Türkiyə haqqında danışıb, rəsmi Ankaranı "Suriyanın şimalında kürdlərin soyqırımı"nda və "Kiprin yarısının işğalında" ittiham edib. O, NATO-nun Türkiyəni "dayandırmaq" üçün lazımi tədbirlər görmədiyini və prezident seçildikdən sonra Şimali Atlantika Alyansının roluna yenidən baxacağını bildirib. Kiçik Kennedinin fikrincə, ABŞ-da inqilab başlayacaq, onun idealizmə, yoxsa qaranlıq reqressiv qüvvələrə əsaslanacağı yeganə sual olaraq qalır.



"Seçim bizimdir", - prezidentliyə namizəd əlavə edib.

Bundan əvvəl Pensilvaniyada seçki kampaniyası zamanı sui-qəsdə məruz qalan keçmiş prezident Donald Tramp kiçik Robert Kennedinin təhlükəsizliyini təmin etməyə çağırmışdı. Tramp hesab edir ki, Kennedinin "ailə tarixini nəzərə alaraq" təhlükəsizliyi təmin edilməlidir.

Qeyd edək ki, Robert Kennedinin eyni ad-soyadlı atası Robert F.Kennedi 1968-ci ildə prezidentliyə namizədlyini verdikdən sonra sui-qəsd nəticəsində öldürülüb.

Donald Tramp üçün "erməni məsələsi" nə indiki, nə də əvvəlki seçki kampaniyalarında aktual deyildi. Seçki yarışını tərk edən Cozef Bayden də erməni diasporunun isterik çağırışlarına baxmayaraq, Azərbaycanın Qarabağ üzərində tam suverenliyini bərqərar etməsinə cavab olaraq Bakıya qarşı sanksiyalar tətbiq etməkdən yayındı. Ağ Ev administrasiyası belə qənaətə gəlib ki, ABŞ-ın Cənubi Qafqaz regionunda milli maraqları və xarici siyasət prioritetləri üçün Azərbaycanla münasibətlər erməni diasporunun səsindən daha vacibdir.

Nəticədə Amerika Erməni Milli Komitəsinin uğur şansı olmayan namizədin seçki kampaniyasını maliyyələşdirməkdən başqa çarəsi qalmayıb.

Kennedinin yalanlarına necə reaksiya verməli? Seçkidə qalib gələcəyi nə qədər qeyri-ciddi səslənsə də, o, ABŞ kimi dövlətdə prezidentliyə namizəddir, hətta Trampın ona vəzifə vəd etdiyi deyilir. Erməni lobbisinin səsləri nəyi həll edə bilər? Kamala Harris də erməni lobbisinin maraqları naminə belə çıxışlar edə bilərmi?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, Robert Kennedinin ermənipərəst mövqedən çıxışı bizim üçün yeni deyil**: "Biz bundan da kəsin çıxışların şahidi olmuşuq və bundan da qatı ermənipərəst liderlər görmüşük. Onların içində ən ermənipərəsti Co Bayden idi ki, ömrünü ermənilərə xidmətə həsr eləmişdi. Ancaq Co Bayden prezident seçildikdən sonra erməniləri ən çox narazı salan prezidentlərdən oldu. Ona görə də hesab edirəm ki, bu gün Robert Kennedinin ermənilərin səsini qazanmağa hesablanan çıxışlarının nəticəsi uzağı ona bir neçə milyon xeyir gətirər. Başqa bir nəticəsinin olacağına inanmıram. Onsuz da ABŞ imkan daxilində, mümkün saydığı qədər ermənipərəst mövqe tutub və bundan sonra da tutmaqda davam eləyəcək. Seçiləcəyi təqdirdə Kamala Harris də eyni mövqeni tutacaq, eyni bəyanatlar verəcək. Donald Trampdan da mən elə də böyük fərqli mövqe gözləmirəm. Azərbaycana imkan daxilində hamısı öz maraqları üçün təzyiqlər göstərəcəklər".

**Ekspert vurğuladı ki, biz də bu təzyiqlərin qarşısında indiyə qədər nə cür dayanmışıqsa elə də dayanmalıyıq:** "Robert Kennedi kimilərini nə çox ciddiyə almamalıyıq, nə də tam laqeyd qalmamalıyıq. İşimizi milli maraqlarımıza uyğun şəkildə gücləndirməliyik. Çox təəssüf ki, biz bu sahədə hələ də lazım olan səviyyəyə çata biıməmişik. Fəallaşmalıyıq, aktiv olmalıyıq, eyni zamanda öz mövqeyimizdə qəti dayanmalıyıq".

**❑ Etìbar SEYÌDAĞA, "Yenì Müsavat"**

## Harris gec gəldi, güc gəldi - reytinqi Trampdan çox olub

### Demokratların namizədi milli sorğuda Respublikaçılar Partiyasından prezidentliyə namizədi 2 faiz qabaqlayıb



**ABŞ-ın vitse-prezidenti Kamala Harris "Ipsos" və "Reuters"in keçirdiyi milli sorğuda Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Trampı 2% qabaqlayıb.**

AYNA xarici mediaya istinadən bildirir ki, Harrisi sorğuda iştirak edən amerikalı seçicilərin 44%-i, Trampı isə 42%-i dəstəkləyib. Sorğu iyulun 22-23-də ABŞ-ın hazırkı Prezidenti Co Baydenin prezidentlik yarışından çıxdığını elan etdikdən və onun yerinə Harrisin namizədliyini dəstəklədikdən sonra keçirilib.

15-16 iyul tarixlərində keçirilən sorğuda Harris və Tramp hər ikisi 44%, 1-2 iyulda isə Tramp Harrisi bir faiz bəndi qabaqlayıb.

Son sorğuya görə, qeydiyyatdan keçmiş seçicilərin 56%-i 59 yaşlı Harrisin "kəskin zehni və problemləri həll etmək qabiliyyətinə malik olduğuna" inanır. Eyni zamanda respondentlərin 49%-i 78 yaşlı Trampı belə təsvir edib.

Sorğuda iştirak edən demokrat seçicilərin 91%-i Harris haqqında müsbət fikirdədir. Sorğuda iştirak edənlərin dörddə üçü demokratların onun namizədliyini dəstəkləməsi ilə razılaşıb. Bundan əvvəl Harris demokratlardan prezidentliyə namizəd olmaq üçün kifayət qədər dəstək aldı. "Associated Press"in sorğusuna görə, 2579 nümayəndə ona səs verməyə hazırdır. Ona isə 1976 səs lazımdır.

Sorğuda seçicilərə Harris və Trampdan başqa müstəqil prezidentliyə namizəd Robert Kennedinin də daxil olduğu hipotetik səsvermə bülleteni də göstərilib. Harrisi seçicilərin 42%-i, Trampı isə 38%-i dəstəkləyib. Kennedi respondentlərin 8%-nin dəstəyini qazanıb.

Bir gün əvvəl, iyulun 23-də Tramp Harris demokratların namizədi olacağı təqdirdə onunla bir neçə debat keçirməyə hazır olduğunu söylədi. Bundan əvvəl Tramp Baydenlə debatda danışıb. Hazırkı prezidentin bu seçkilərdə uğursuzluğu onun seçki yarışından geri çəkilməsinə səbəblərdən biri olub.

## Erməniпərəst senatorun sonu

**Korrupsiyada təqsirli bilinən Nyu-Cersi ştatından olan ABŞ senatoru Robert Menendes istefa verib. Bu barədə məlumatı "Reuters" yayıb.**

Məlumata görə, o istefa ərizəsini Nyu-Cersi ştatının qubernatoruna təqdim edib. Məlumata görə, o, avqustun 20-də Senatı tərk edəcək.

Qeyd edək ki, bir neçə gün əvvəl Nyu-York məhkəməsi amerikalı erməniпərəst senator Menendezi rüşvətxorluq, maliyyə fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla ümumilikdə 16 maddə üzrə təqsirli bilib. Bu işdə senatorun həyat yoldaşı, erməni əsilli Nadine Menendez də ittiham olunub. Lakin onun məhkəməsi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

2006-cı ildən Nyu-Cersi ştatının senatoru olan Menendez Konqresdə fəaliyyət göstərdiyi vaxtda federal agent kimi müttəhim kürsüsünə çıxarılan ilk senatordur. Bu, Menendezin Senatın üzvü olduğu təxminən 20 il ərzində onun korrupsiya ittihamı ilə üzləşdiyi ikinci federal cinayət işidir. Əvvəlki məhkəmə istintaqı hakim heyətinin hökm çıxara bilməməsi səbəbindən yalnız araşdırma ilə nəticələnib.

## Bütün keçmiş yoldaşları Baydeni tərk etdi

### "Bundan sonra onun seçimi qalmadı"

**"ABŞ prezidenti Co Bayden keçmiş dövlət başçısı Barak Obama və Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosi kimi aparıcı demokratlar tərəfindən yarışdan kənarlaşdırılıb". AYNA "New York Post"a istinadən bildirir ki, bu sözləri Respublikaçılar Partiyasının prezidentliyə namizədi Donald Tramp deyib.**

"Obama ona dözə bilməz, o da Obamaya dözə bilməz. Obama rol oynadı, çünki o, onu dəstəkləməyəcəyini söylədi", Tramp qeyd edib.

Trampın sözlərinə görə, bütün keçmiş yoldaşları Baydeni tərk edib: "Bundan sonra Baydenin seçimi qalmadı".

Əvvəllər Obama və Pelosi hazırkı Amerika lideri Co Baydenin əvəzinə vitse-prezident Kamala Harrisin seçilməsini birbaşa dəstəkləmirdilər. Sabiq prezident partiya yoldaşlarını "namizədlərin irəli sürülməsi üçün daha rəqabətli prosesə" çağırıb. O, yaxın günlərdə Demokrat Partiyasının "təsvir edilməmiş sularda üzəcəyini" söyləyib.

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

# Qiymətli kağızlar bazarı: kim satır, kimlər alır və niyə?

## Son 3 ildə ölkədə qiymətli kağızlar bazarının inkişafına nail olmaq üçün müəyyən addımlar atılır, amma...

**Bu ilin I yarısında Azərbaycanın qiymətli kağızlar bazarında 18 milyard 616,9 milyon manatlıq əməliyyat aparılıb. Azərbaycan Mərkəzi Bankının statistikasına görə, bu, ötən ilin eyni dövrünə nisbətən 2,2 dəfə çoxdur.**



Yarımillik göstəricinin 4 milyard 280,6 milyon manatlıq hissəsi ilkin bazarda (22,8 faiz çox), 14 milyard 336,3 milyon manatlıq hissəsi təkrar bazarda (2,9 dəfə çox) formalaşıb.

Hesabat dövründə qiymətli kağızlar bazarında 7 354 əqd bağlanılıb. Bu, illik müqayisədə 31,7 faiz çoxdur. Əqdlərin 1 182-si ilkin bazarın (1,8 faiz az), 6 172-si isə təkrar bazarın (41 faiz çox) payına düşüb.

Yanvar-iyun aylarında qiymətli kağızlar bazarında aparılmış əməliyyatların 3 milyard 653,5 milyon manatlıq hissəsi və yaxud 19,6 faizi dövlət qiymətli kağızlarının, 2 milyard 138,3 milyon manatlıq hissəsi və yaxud 11,5 faizi korporativ qiymətli kağızların, 12 milyard 825,1 milyon manatlıq hissəsi və yaxud 68,9 faizi isə repo əməliyyatlarının payına düşüb. Bunlar, əvvəlki ilə nisbətən müvafiq olaraq 14,7 faiz, 53 faiz və 3,3 dəfə çoxdur.

Altı ay ərzində bu bazarda bağlanmış əqdlərin isə 1 450-si və yaxud 19,7 faizi dövlət qiymətli kağızlarının, 2 018-i və yaxud 27,45 faizi korporativ qiymətli kağızların, 3 886-sı və yaxud 52,85 faizi isə repo əməliyyatlarının payına düşüb. Bunlar isə illik müqayisədə müvafiq olaraq 3,1 faiz, 10,6 faiz və 65,4 faiz çoxdur.

Bakı Fond Birjasında (BFB) 2024-cü ilin yanvar-iyun ayları ərzində qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 17 milyard 651 mln. 527.2 min manat təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.3 dəfə çoxdur. Birjadan verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə korporativ qiymətli kağızların ticarət həcmində 64 faiz, dövlət qiymətli kağızların ticarət həcmində isə 15 faiz böyümə qeydə alınıb, repo əməliyyatları üzrə 226 faiz artım olub. O cümlədən ötən illə müqayisədə korporativ qiymətli kağızların repo əməliyyatlarının bazarı üzrə 144 faiz artım qeydə alınıb.

Daha bir statistikaya əsasən, 2024-cü ilin II rübündə Milli Depozit Mərkəzi tərəfindən həyata keçirilən qiymətli kağızlar üzrə ödənişlərin ümumi məbləği 1 milyard 438,7 milyon manat və 32 milyon 682,3 min ABŞ dolları təşkil edib. Bu dövrdə Milli Depozit Mərkəzi Azərbaycan Mərkəzi Bankının notları üçün 798,7 min manat, dövlət istiqrazları üçün əsas məbləğ üzrə 492,5 min manat, kupon üzrə isə 95,9 milyon manat ödəniş həyata keçirilib. Mərkəzi depozitar investorlara korporativ istiqrazlar üçün əsas məbləğ üzrə 48,25 milyon manat, 30 min ABŞ dolları, kupon üzrə isə 3,3 milyon manat, 2,68 milyon dollar ödəniş edib.

Qeyd edək ki, qiymətli kağızlar bazarı iqtisadiyyatın mühüm sahələrindən biridir. Onun inkişaf tarixi 16-cı əsr Avropasından başlayır. İnkişaf etmiş ölkələrdə bu, bazar iqtisadiyyatının əsas göstəricisi rolunu oynamaqla, maliyyə-investisiya siyasətində mühüm təsiredici qüvvəyə malikdir. Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı müstəqillik əldə olunan ilk illərdən qarşıya prioritet kimi qoyulsa da, indiyədək bu sahədə ciddi nəticələrin əldə olunduğunu söyləmək mümkün deyil. Bazar həcmləri çox cüzi rəqəmlərlə ifadə olunub, qiymətli kağızlar investisiya və reinvestisiya aləti kimi demək olar ki, iqtisadiyyatda əhəmiyyətli bir paya malik olmayıb, öz klassik rolunu oynaya bilməyib. Bunun əsas səbəbi kimi ekspertlər ölkədə inhisarçılığın yüksək həddini, məmur biznesinin təşəkkülünü, azad biznes və investisiya mühitinin olmamasını göstərirlər.

Son 3 ildə ölkədə qiymətli kağızlar bazarının inkişafına nail olmaq üçün müəyyən addımlar atılır. Bunlar arasında Maliyyə Nazirliyinin irihəcmli qiymətli kağızlarının emissiyası, Mərkəzi Bankın repo əməliyyatlarını bərpa etməsi, bir sıra iri dövlət şirkətlərinin qiymətli kağızlarının emissiyası və sairi göstərmək olar.

Azərbaycan Milli Depozit Mərkəzinin məlumatına əsasən, hazırda Azərbaycanın kapital bazarında dövlət istiqrazları, korporativ istiqrazlar və Mərkəzi Bankın qısamüddətli notları mövcuddur. Dövlət istiqrazı dövlət tərəfindən emissiya edilən istiqrazdır. Dövlət istiqrazları dövlətin əsas borclanma mexanizmlərindən biri olub, hər hansı bir fövqəladə hadisə ilə əlaqədar tələb olunan xərclərin qarşılanması və ya digər tədbirlərin həyata keçirilməsi üçün çatışmayan vəsaitin əldə olunması məqsədi güdür.

Korporativ istiqraz özəl müəssisə tərəfindən əlavə vəsait cəlb etmək məqsədilə emissiya edilən borc qiymətli kağızıdır.

Mərkəzi Bankın notları isə Mərkəzi Bank tərəfindən bir ilədək müddətə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır. Qısamüddətli notlar dövriyyədə olan pül kütləsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş pul siyasəti vasitəsidir. "Qiymətli kağızlar bazarı haqqında" Qanuna müvafiq olaraq istiqrazların nominalı milli və ya xarici valyutada ifadə oluna bilər.

Açıqlanan rəsmi statistikadan aydın olur ki, Azərbaycan qiymətli kağızlar bazarının həcmində repo əməliyyatlarının payı çox yüksəkdir. Bu əməliyyatlar Mərkəzi Bank tərəfindən həyata keçirilir. Klassik anlamda repo müqaviləsi kapital bazarlarında istifadə edilən qısamüddətli borc forması olmaqla, öz maliyyə ehtiyaclarını ödəmək məqsədilə bazar iştirakçılarını müvəqqəti borc cəlb etmə imkanları ilə təmin edir. Başqa sözlə, repo müqaviləsi qiymətli kağızların müqabilində vəsaitlərin cəlb olunması deməkdir.

"Qiymətli kağızlar bazarı haqqında" Qanuna görə, repo müqaviləsi investisiya qiymətli kağızlarının əvvəlcədən müəyyən edilmiş şərtlərlə geri satın alınması (satılması) öhdəliyi ilə satılması (alınması) kimi təsbit edilmişdir. Repo əməliyyatı repo açılış əqdi və repo bağlanış əqdi olmaqla iki hissədən ibarətdir. Repo açılış əqdi repo əməliyyatının birinci hissəsi olmaqla, investisiya qiymətli kağızlarının satılması (alınması) üzrə əqddir, repo bağlanış əqdi isə ikinci hissəni təşkil etməklə, investisiya qiymətli kağızlarının geri satın alınması (satılması) üzrə əqddir. Repo əqdinə müvafiq olaraq qiymətli kağızları satan tərəf müəyyən edilmiş müddətin sonunda qiymətli kağızı alıcıdan yenidən geri almaq öhdəliyini daşıyır. Repo açılış əqdi tarixi ilə Repo bağlanış əqdi tarixi arasındakı müddət repo müddətini təşkil edir.

Azərbaycanda repo əməliyyatları Bakı Fond Birjası (BFB) və onun üzvü olan investisiya şirkətləri arasında və kliring təşkilatı qismində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin iştirakı ilə bağlanan Baş Razılaşma əsasında birjanın qaydalarına uyğun olaraq həyata keçirilir. Repo Baş Razılaşması repo əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini, məsuliyyətini müəyyənləşdirən çərçivə sənədidir.

Bir qayda olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankının Repo/Əks repo əməliyyatları investorlar arasında Repo Baş Razılaşmasına uyğun olaraq BFB-də keçilir. Bu zaman predmeti olaraq Mərkəzi Bankın qısamüddətli notları, dövlət istiqrazları və Baş Repo razılaşmasında qeyd olunan likvid qiymətli kağızlar çıxış edir.

Repo əməliyyatlarının həyata keçirilməsinin müddəti və repo faiz dərəcəsi investorlar tərəfindən müəyyən olunur. Repo əməliyyatı üzrə gəlirlilik dərəcəsi repo açılış əqdi qiyməti ilə repo bağlanış əqdi qiyməti arasındakı fərqdən formalaşır. Repo ticarəti birjanın ticarət reqlamentinə uyğun olaraq həyata keçirilir.

**İqtisadçı-ekspert Rəşad Həsənovun "Yeni Müsavat"a dediyinə görə, Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı məqsədilə qəbul edilən, həyata keçirilən strategiyalar və qarşıya qoyulan hədəflər bir qayda olaraq özünü doğrultmur:** "Bu da daha çox bazarın strukturu, iqtisadi subyektlərin bu istiqamətdəki meylliyi kimi mənfi trendlər fonunda ortaya çıxır. Hazırda bu bazarda müşahidə edilən artımın əsasında Mərkəzi Bankın apardığı əməliyyatların dayanması indiki şərtlər daxilində təbiidir. Qiymətli kağızlar bazarındakı artım son iki ildə Mərkəzi Bankın bazar müdaxilə alətlərini təkmilləşdirməsi, pul siyasəti çərçivəsini yeniləməsindən qaynaqlanır. Xüsusilə də hazırda bazarda likvidliyin böyük olması, inflyasiya təzyiqlərinə qarşı mübarizə zərurəti, eyni zamanda fiskal genişlənmənin neytrallaşdırılması istiqamətində pul bazarının tənzimlənməsi ilə bağlı yaranmış çağırışlar Mərkəzi Bankı daha intensiv şəkildə, daha böyük həcmdə repo və əks-repo əməliyyatlarını həyata keçirməyə sövq edir. Hətta uzunmüddətli bazarda pulun realizasiyası da bu siyasəti dəstəkləyir".

**Ekspert bildirir ki, qiymətli kağızlar bazarında son 2 ildə müşahidə olunan yüksək artım dayanıqlı inkişafdan xəbər vermir və çox kövrəkdir:** "Sabah-birigün Mərkəzi Bankın belə böyük həcmli repo əməliyyatlarına ehtiyac olmayacaqsa, yəni monetar siyasətin bu istiqamətdə çağırışları yaranmayacaqsa, onda qiymətli kağızlar bazarının həcmində kəskin azalma baş verəcək. Biz indiyədək bir neçə dəfə belə azalmanı müşahidə etmişik. Qısa formada desək, qiymətli kağızlar bazarında Mərkəzi Bankın qısamüddətli notlarına əsaslanan böyümə klassik anlamda qəbul edilən inkişafa uyğun gəlməyən, müvəqqəti xarakterli prosesdir. Bu bazarda dayanıqlı inkişafın təmin olunması üçün çoxsaylı və kompleks addımların atılmasına ehtiyac var. Onların əsasında azad biznes və investisiya mühitinin təmin olunması ilk yerdə gəlir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

# “Le Figaro”nun növbəti qərəzi

## Azərbaycan hansı səbəbdən ərazisində Şarl Aznavurun büstünü saxlamalıdır?

**Fransanın “Le Figaro” nəşri Avropa Hüquq və Ədalət Mərkəzinin (ECLJ) qərəzli hesabatının nəticələrinə istinadən növbəti yalanlarla dolu məqalə dərc edib.**

ECLJ-in hesabatına istinadən qeyd olunur ki, guya Azərbaycan erməni mədəni və tarixi irsini məqsədyönlü şəkildə məhv edir. Məqalədə qeyd olunur ki, 2023-cü ilin sentyabrında Qarabağın bütün ərazisi Azərbaycanın nəzarətinə keçdikdən sonra Ermənistan və beynəlxalq təşkilatların çoxsaylı müraciətlərinə baxmayaraq, Bakı xarici müşahidəçilərin mədəniyyət obyektlərinə girişinə icazə vermir. Bu əlbəttə ki, “sübuta ehtiyacı” olmayan yalandır. Çünki Azərbaycan tərəfi xarici KİV nümayəndələri üçün işğaldan azad edilmiş ərazilərə çoxsaylı turlar təşkil edib, burada onlar tarixi və mədəni irsinə qarşı erməni vandalizmini öz gözləri ilə görüblər. 2020-ci ilin noyabr ayının sonunda, 44 günlük müharibə başa çatdıqdan sonra UNESCO Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəniyyət obyektlərinin ilkin inventarlaşdırılmasının aparılması üçün ekspert missiyasının göndərilməsini təklif edib. Buna cavab olaraq Azərbaycan tərəfi UNESCO-ya Qarabağın xristian abidələri ilə yanaşı müsəlman irsi obyektlərinə də baxış keçirməyi təklif edib.

UNESCO uzun tərəddüddən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərə səfər etmək və erməni vandalizminin dəhşətli mənzərəsini görmək dəvətini qəbul etdi. Amma indiyədək də UNESCO Ermənistanın ətirazı ilə Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərinə səfər etmək niyyətini bildirməyib. Səbəb aydındır: UNESCO-nun missiyası yer üzündən silinmiş yaşayış məntəqələrini, donuzxanaya çevrilən məscidlər, Azərbaycan xalqının tarixi-mədəni irsinin murdarlanmış abidələrini görəcək... "Le Figaro"nun məqaləsində bu mühüm məqam öz əksini tapmayıb, əvəzində Fransa qəzeti Xankəndidə “Ermənistan tarixini xatırladan çoxlu abidə və heykəllərin söküldüyündən” təəssüflənir. Məsələn, 2021-ci il mayın 22-də bu müğənninin adını daşıyan mədəniyyət mərkəzinin qarşısında qoyulmuş Şarl Aznavurun büstü. Azərbaycan hansı səbəbdən 2009-cu ildə o vaxt hələ də Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinə qanunsuz səfər etmiş Aznavurun büstünü saxlamalıdır?

Bu büst, eləcə də Birinci Qarabağ müharibəsindən sonra ucaldılan digər qondarma abidələr azərbaycanlılar üçün işğal rəmzidir. Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa edərək Qarabağ və Ermənistan tərəfindən işğalına həsr olunmuş abidələri qoruyub saxlamalı olsaydı, bu, tamamilə absurd olardı. Ermənilər eynilə xristian abidələrini də dağıdıblar. Xocalı rayonunun Ulubab kəndi yaxınlığında yerləşən 13-cü əsrə aid monastırı necə zibilliyə çevirdikləri də bunun bir sübutudur.




Xatırladaq ki, ötən il UNESCO missiyası Azərbaycanın işğaldan azad olunan Qarabağ bölgəsinə səfər etmək üçün müraciət etmişdi. Rəsmi Bakı buna razılıq vermiş, lakin Ağdamdan keçməklə Xankəndinə getməyi və səfər zamanı Ağdamdakı dağıntıları da qeydə almağı təklif etmişdi. Qarşı tərəf isə bununla razılaşmayıb və birbaşa Xankəndinə getmək, oradakı erməni abidələrinin vəziyyətini görmək istədiklərini bildirib.

Bu ilin mart ayında isə UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası çərçivəsində ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev Azərbaycanın milli bəyanatını təqdim edib.

Daimi nümayəndə Ermənistan tərəfindən ölkəmizə qarşı 30 ildən artıq davam edən təcavüz və işğal müddətində Azərbaycanın mədəni irsinin tamamilə dağıdıldığı, arxeoloji abidələrin, muzeylərin və kitabxanaların talanaraq tamamilə dağıdıldığı, bu vandalizm aktlarının 1954-cü il Haaqa Konvensiyası və onun İki Protokoluna, eləcə də 1970-ci il Konvensiyası da daxil olmaqla, beynəlxalq hüququn prinsiplərinə zidd olduğunu və onların kobud şəkildə pozulduğunu qeyd edib. E.Abdullayev Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın təhsil infrastrukturuna vurulmuş ciddi ziyandan söz açıb, 2000-dən artıq təhsil müəssisəsinin dağıdıldığını vurğulayıb. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə ölkəmiz tərəfindən genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlanıldığını deyən daimi nümayəndə Ermənistan tərəfindən bu ölkədə Azərbaycan xalqına məxsus mədəni irs nümunələrinin tamamilə dağıdılması prosesinin davam etdiyini bildirib. Qeyd edilib ki, Ermənistanda bütün Azərbaycan toponimləri dəyişdirilib, ölkəmizin tarixi-mədəni irsi, məscidləri və qəbiristanlıqları qəsdən məhv edilib. Bu vandalizmin əsas məqsədi əsrlər boyu həmin torpaqlarda yaşamış azərbaycanlıların izlərini o ərazilərdən tamamilə silməkdir. İrəvanın Təpəbaşı məhəlləsinin də eyni aqibətlə üzləşdiyi vurğulanıb, Ermənistan hökuməti tərəfindən həmin ərazinin tamamilə məhv edildiyi sessiya iştirakçılarının diqqətinə çatdırılıb.

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa “Yeni Müsavat”a mövzunu belə şərh etdi:** “Əlbəttə, UNESCO belə bir səfərə razılıq versə, özünü ifşa etmiş olacaq. Çünki bu qurum ermənilərin maraqlarını təmsil etmək üçün canfəşanlıq edir. İndiyə qədərki fəaliyyətində də bunu göstərib. Halbuki qurum nümayəndələri işğaldan azad edilmiş ərazilərə səfər etsələr, Şuşada da, Xankəndidə də kilsələrin qorunub saxlandığını öz gözləri ilə görərlər. Azərbaycanın abidələrə yanaşmasını hər kəs bilir. Azərbaycan tolerant, mədəni ölkə kimi bütün dinlərin mövcudluğunu qəbul edir. Erməni xislətinə uyğun olaraq hər şeyi vəhşicəsinə dağıtmaq zehniyyəti azərbaycanlılara yaddır. Azərbaycanlılar həm də tolerantlığına görə ermənilərdən fərqlənir. Buna görə də UNESCO-nun Azərbaycana səfəri gecikdirilir. Onlar həqiqəti etiraf etməkdə maraqlı deyillər. UNESCO-nun Azərbaycana səfəri faktlarla tanışlıq olacaq. Ağdamın və digər şəhər, rayonların dağıdıldığını, məscidlərin vəziyyətini, kilsələrə heç bir xələl gəlmədiyini görəcəklər. Bizə də bu lazımdır. Bu faktları gördən sonra məncə, bir çox məsələ öz mahiyyətinə qayıdacaq. Azərbaycan beynəlxalq ictimai rəyi bu məsələyə yönəltmək üçün çağırışları davam etdirməlidir”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**



## Pezeşkianın andiçmə mərasiminə Azərbaycandan kim gedəcək?

**İranın yeni prezidenti Məsud Pezeşkianın andiçmə mərasimi iyulun 30-da İslam Şurası Məclisində (parlament) keçiriləcək. İran parlamenti İcraiyyə Şurasının sözçüsü Əlirza Səlimi deyib ki, Məsud Pezeşkianın andiçmə mərasimi iyulun 30-da günortadan sonra keçiriləcək.**

Səlimi həmçinin bildirib ki, çərşənbə axşamı - iyulun 30-da səhər saatlarında İslam Şurası Məclisinin deputatları prezidentin andiçmə mərasiminin qonağı olan xarici nümayəndə heyətləri və rəsmiləri qarşılayacaqlar.

Əlirza Səlimi xarici nümayəndə heyətləri və rəsmilər barədə geniş açıqlama verməyib, adlar çəkməyib.

Maraqlıdır, Azərbaycan Respublikasından İran prezidentinin inauqurasiyasına kim gedəcək?

Modern.az saytı Məsud Pezeşkianın andiçmə mərasimində Azərbaycan Respublikasından kimin iştirak edəcəyini dəqiqləşdirmək üçün Xarici İşlər Nazirliyi ilə əlaqə saxlayıb. Lakin nazirliyin mətbuat xidməti idarəsindən bu barədə hələ ki məlumata malik olmadıqları deyilib.

İyulun 5-də keçirilən təkrar seçkilərdə İran siyasətçilərinin islahatçılar qanadının namizədi, etnik azərbaycanlı Məsud Pezeşkian ölkənin yeni prezidenti seçilib. “Yeni Müsavat”ın məlumatına görə, andiçmə mərasimində xarici işlər naziri və ya baş nazirin iştirakı gözlənilir.

❑ **“Yeni Müsavat”**



## Bakı və Astana arasında hərbi kəşfiyyata dair saziş imzalanacaq

**Azərbaycan və Qazaxıstan terror və ekstremist təşkilatlar haqqında hərbi kəşfiyyat məlumatlarının mübadiləsini həyata keçirməyi planlaşdırır. Qazaxıstan KİV-ləri xəbər verir ki, Azərbaycanla müdafiə sahəsində hərbi kəşfiyyata dair əməkdaşlıq haqqında saziş layihəsinin müzakirəsi avqustun 6-dək davam edəcək.**

Layihəyə əsasən, tərəflər həmçinin müdafiə nazirliklərinin şəxsi heyəti üçün birgə döyüş hazırlığı tədbirləri keçirmək niyyətindədirlər.

“Mübahisə və fikir ayrılıqları heç bir milli, beynəlxalq məhkəmə və ya üçüncü tərəfə təqdim edilmədən ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir”, - saziş layihəsində bildirilib.

Hərbi kəşfiyyata dair saziş 5 il müddətinə bağlanır. Qazaxıstanla Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il avqustun 27-də qurulub. İkitərəfli müqavilə-hüquq bazasına əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 70-ə yaxın sənəd daxildir.

Hər iki ölkə BMT, MDB, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir.

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

# Ucuz ìpoteka varmı?

## Jurnalistin 55 yaşı varsa, bunu 10 il müddətinə götürə bilər...

**Hər bir vətəndaşın mənzil hüququ var və hər kəs istəyir ki, ev-eşiyi, öz doğma yuvası olsun. Dövlət müxtəlif kateqoriyadan olan vətəndaşların güzəştli ipoteka ilə mənzil almasına şərait yaradıb. Həmkarlarımız arasında da kifayət qədər mənzilə ehtiyacı olanlar var və onlar da dövlət dəstəkli güzəştli ipoteka kreditindən yararlanıb mənzil sahibi olmaq arzusundadır.**




Bildiyimiz kimi, Azərbaycanda yeni “Media Haqqında” Qanun 2021-ci ilin sonlarında qəbul olunub. Qanun qüvvəyə mindikdən sonra güzəştli mənzil ala biləcək peşə sahibləri kateqoriyasına jurnalistlər də əlavə olunub. Bu da jurnalistlərin mənzil-məişət şəraitinin tam şəkildə dövlət büdcəsinin vəsaiti hesabına yaxşılaşdırılmasına xidmət edən məsələdir.

Media Reyestrinə daxil edilmiş və jurnalistika sahəsində müəyyən qədər staja malik olan jurnalistlərə, habelə gənc ailənin üzvü olan jurnalistlərə mənzil almaları üçün dövlət dəstəkli güzəştli ipoteka kreditindən yararlanmaq hüququ verilib.

Fərmana əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlər 4 faizli ipoteka krediti ala bilərlər.

Qeyd edilirdi ki, bunun üçün əvvəlcə jurnalistin işlədiyi və ya əməkdaşlıq etdiyi media subyekti müraciət edərək Media Reyestrinə daxil olmalı və media subyekti şəhadətnaməsi almalıdır. Bundan sonra jurnalist Media Reyestrinə daxil edilmək üçün müraciət etməlidir. Müraciət qəbul olunduqdan və jurnalistə müvafiq vəsiqə verildikdən sonra jurnalist güzəştli ipoteka almaq üçün müraciət edə bilər. Həmçinin müraciət edən şəxs güzəştli ipotekadan yararlanmaq üçün İpoteka və Kredit Zəmanət Fondunun ipoteka üzrə kriteriyalarına uyğun olmalıdır.

**Lim10.az saytının baş redaktoru, iqtisadçı ekspert Akif Nəsirli “Bakı-Xəbər”ə bunları deyib:** “Bu istiqamətdə real vəziyyətlə bağlı hər hansı bir yeni məlumatım yoxdur. Güzəştli ipotekadan yararlanan və bu yolla mənzil alan hansısa bir jurnalist tanımıram. Amma yəqin ki, kimsə bundan yararlanıb, amma konkret olaraq adlar açıqlanmayıb. Özü də təkcə orada jurnalistlər deyil, digər kateqoriyalara aid olan şəxslər də var. Jurnalistlər güzəştli ipotekaya son qoşulan zümrədir. Şərtlərin nədən ibarət olduğu qaydalarda var. Gənc ailə beş, yaşlı insanlar 15 illik staja malik olmalıdırlar. Söhbət Media Reyestrindən keçmiş jurnalistlərdən gedir. Onların hətta qazancları müəyyən həddə olmalıdır. Yəni ayda 500 manat ipoteka ödənişi ödəyirsənsə, 1000 manat maaşın olmalıdır. Əməkhaqqının təxminən 50 faizinə uyğun olmalıdır. Amma məsələ burasındadır ki, ailədə uşaqların sayı artdıqca maaş məbləğinin artması tələbi də var. İkincisi, hər bir ailə üzvünün yaşayış minimumunu maaşdan çıxırlar, yerdə qalanı ipotekanın qaytarılması üçün hesablanır. Tutaq ki, evdə beş uşaq var, 315 manatdan minimum yaşayış səbətinin dəyərini o beş nəfər üçün çıxırlar, maaş 1000 manatdırsa, artıq orada heç nə qalmır. Amma elə olmalıdır ki, məbləğ ailə üzvlərinin yaşayış minimumunu təmin etdikdən sonra ipotekanın qaytarılmasına imkan versin. Məsələn, ailə üzvünün sayı iki nəfərdirsə və əsas ana borclanan 1000 manat əməkhaqqı alırsa onda 400-430 manat onların yaşayışına çıxılır, 500 manat da tutaq ki, ipoteka borcunun qaytarılması üçün nəzərdə tutulur. Yəni belə detallar var. Digər tərəfdən, yaş həddi də mövcuddur. Məsələn, jurnalistin 55 yaşı varsa, o bunu 10 il müddətinə götürə bilər. Yəni 65 yaşdan o yana olan insanlarla müqavilə müddəti olmamalıdır. 65-dən yuxarı yaşı olan şəxslərlə müqavilə bağlamırlar. Yəni pensiyaçılara ipoteka krediti vermirlər”.

# Parklanma qaydalarını pozan sürücüləri bu cəza gözləyir




**Azərbaycanda parklanma qaydalarının pozulmasına görə cərimələr artırılıb.**

Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklik təsdiqlənib.

Dəyişikliklə nəqliyyat vasitəsinin istifadəçisi tərəfindən nəqliyyat vasitəsi ilə ödənişli parklanma yerinə daxil olduqdan sonra xüsusi proqram təminatı və ya SMS vasitəsilə parklanma müddətinin başladılmamasına, nəqliyyat vasitəsinin parklanmasına görə müəyyən edilmiş ödəniş edilmədən və ya ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə üçün əlavə ödəniş edilmədən parklanma yerinin tərk edilməsinə görə 20 manat məbləğində cərimə ediləcək.

Buna qədər nəqliyyat vasitəsinin parklanmasına görə müəyyən olunmuş ödəniş edilmədən və ya ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə üçün əlavə ödəniş edilmədən sürücünün parklanma yerini tərk etməsinə görə 10 manat məbləğində cərimə edilirdi.

Digər dəyişikliklə parklanma yerində müvafiq yol nişanları və nişanlama xətləri ilə müəyyən edilmiş parklanma üsulunun sürücü tərəfindən pozulması nəticəsində digər nəqliyyat vasitəsinin növbəti parklanma yerində qanuna uyğun parklanması qeyri-mümkün olduqda və ya digər nəqliyyat vasitələrinin hərəkətinə maneə yaratdıqda 20 manat məbləğində cərimə olunacaq. Bu günə qədər nəqliyyat vasitəsinin qanunla müəyyən edilmiş parklanma üsulunu pozmaqla parklanmasına görə 10 manat məbləğində cərimə edilirdi.

Daha bir dəyişikliklə parklanma yerlərində icazə verilmiş maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin parklanmasına, habelə parklanma yerlərinin rezervasiya edilməsi və ya digər üsullarla nəqliyyat vasitələrinin sərbəst parklanmasına maneələr yaradılmasına görə 20 manat məbləğində cərimə ediləcək. İndiyə qədər bu məbləğ 10 manat idi.

Bundan əlavə, əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər nəqliyyat vasitələrinin parklanmasına görə 60 manat məbləğində cərimə ediləcək. Bu məbləğ 10 manat idi.

# Siqaret bahalaşır



**Nazirlər Kabineti 19 yanvar 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə dəyişiklik edib.**

Bununla bağlı baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Azərbaycana idxal edilən şampan şərabının hər litri üçün aksiz vergisi 5,1 manatdan 2,7 manata endirilib, denaturasiya olunmamış etil spirtinin (80 həcm faiz və ya çox spirt qatılığı ilə) və həcm faizi 80-dən az qatılığı olan denaturatlaşdırılmamış etil spirtinin hər litri üçün aksiz vergisi 6 manatdan 6,8 manata qaldırılıb, üzüm çaxırının və ya üzüm puçallarının distillə edilməsi nəticəsində alınan spirtli tinkturaların hər litri üçün aksiz vergisi 8 manatdan 8,8 manata, viski, rom və digər spirtli tinkturalar, şəkər qamışının qıcqırdılmış məhsullarının qovulması nəticəsində alınan cin və ardıc tinkturası, araq, likörlər və digər spirtli içkilərin hər litri üçün aksiz vergisi 12 manatdan 12,8 manata qaldırılıb.

Bundan başqa, tərkibində tütün olan siqarlar, o cümlədən ucları kəsilmiş siqarlar və tərkibində tütün əvəzləyicisi olan siqarillaların hər 1 000 ədədi üçün aksiz vergisi 43 manatdan 45,5 manata, tərkibində tütün olan siqaretlər və tərkibində tütün əvəzləyicisi olan siqaretlərin hər 1 000 ədəd üçün aksiz vergisi 46,5 manatdan 53,5 manata, alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsulların hər 1 000 ədədi üçün aksiz vergisi 14 manatdan 16 manata, birdəfəlik istifadə olunan elektron siqaret, qəlyan və onların əvəzedicilərinin hər ədədi üçün aksiz vergisi 0,25 manatdan 2 manata qaldırılıb.

Qərar dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.

YENİ MÜSAVAT
N 129 (8502) 25 iyul 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Gənclərə maşın sükanı etibar etmək olar?

## Rəqəmlər qorxudur - Azərbaycanda gənc sürücülərin sayı artır

**Ağır yol-nəqliyyat hadisələri gənclərin həyatını ölümlə üzləşdirən və gənc yaşlarında dünyalarını dəyişməsinə səbəb olan ən başlıca amildir. Dünya Səhiyyə Təşkilatının bu barədə Almaniya mətbuatında açıqlamaları dərc olunub.**



Məlumatda bildirilir ki, statistik hesablamalara görə, bir həftə ərzində dünyada yol-nəqliyyat hadisələri nəticəsində 7 mindən çox 15-20 yaşlı gənc həlak olur. Bunların əksəriyyəti təhlükəli şəraitin yaranmasına məhəl qoymayaraq, maşınları böyük sürətlə idarə edən və bu hərəkətindən qürrələnən sürücülərdir. Onların diqqətsizliyi və ehtiyatsızlığı ucbatından digərlərinin də həyatı təhlükə ilə üzləşir. Dünya Səhiyyə Təşkilatının hesablamalarına görə, hər il dünyada 1,2 milyon insan belə ağır yol-nəqliyyat hadisələrinin qurbanı olur.

Ağır yol-nəqliyyat hadisələri Almaniyanın avtomobil yollarında da tez-tez baş verir. Ötən ay Unterfranken yolunda baş verən avtomobil qəzası nəticəsində 17,19 və 20 yaşında üç gənc həlak olmuş, avtomobili idarə edən 21 yaşlı gənc sürücü ağır yaralanmışdır. Onun da həyatı təhlükə qarşısındadır.

Yerli yol polisinə istinadla bildirilir ki, sərnişinləri dörd gəncdən ibarət sürətlə hərəkət edən maşın idarəsini itirərək, yolun əks istiqamətinə çıxmış və qarşıdan gələn ağır yük maşını ilə toqquşmuşdur.

Əslində isə ölkə nəqliyyatında gənc sürücülərin sayının artması özlüyündə bir çox məqamlardan xəbər verir.

"Maxim"in mütəxəssisləri tipik taksi sürücüsünün nə cür göründüyü barədə danışıblar: onun adını, yaşını və avtomobilinin markasını bildiriblər. Azərbaycanda taksi sürücüləri arasında ən geniş yayılmış ad Anardır. Sürücülərin 2%-nin adı məhz belədir. İkinci yerdə Orxan adıdır, bu adı sürücülərin 1,7%-i daşıyır. Sürücülərin 1,5%-nin adı Elnurdur. Ən geniş yayılmış adların onluğuna həmçinin Elvin, Samir, Tural, Rəşad, Vüsal, Vüqar və Elçin adları da daxildir.

Taksidə daha çox yaşı 21-dən 35-dək olan gənclər işləyir. Onların sayı yarıdan çoxdur - 72%. Daha az sayı yaşı 36-dan 45-dək olan sürücülər təşkil edir - 20%. Yaşı 66-dan yuxarı olan sürücülərin payına isə cəmi 0,1% düşür.

Taksi sürücülərinin əksəriyyəti şəxsi avtomobillərində işləyir. Çox vaxtı bu, populyar və sınanılmış xarici avtomobillərdir. Birinci yerdə "Mercedes C-class" yerləşib, onunla sifarişləri yerinə yetirənlərin sayı sürücülərin ümumi sayının təxminən 12%-i təşkil edir. Taksi avtomobili qismində daha az "Mercedes E-class" avtomobillərini görmək olar, ona üstünlük verənlərin sayı 9%-dir. Üçüncü yerdə "Opel Astra"dır, onu taksi sürücülərinin 7%-i seçir. Ən populyar taksi avtomobillərinin siyahısına həmçinin "Opel Vectra", "Mercedes 190", "Daewoo Gentra", "Lada 2115" və "Daewoo Nexia" avtomobilləri düşüblər. Statistika ölkənin 4 şəhəri üzrə təqdim edilib: Bakı, Gəncə, Mingəçevir və Sumqayıt.

Hazırda gənclər arasında sürücülük vəsiqəsi alanların sayında artım var. Amma statistika göstərir ki, sürücülük vəsiqəsi alanların hər biri də öz avtomobilini idarə etmir. Belə ki, bəziləri həvəskar olduğu, bəziləri isə nə zamansa, gələcəkdə maşın sahibi olacaqlarını düşündükləri üçün vəsiqə almağa çalışırlar. Bu baxımdan xanımlar üstünlük təşkil edir. Gənclər, yeniyetmələrin əksəriyyəti 18 yaşı tamam olan kimi, sürücülük vəsiqəsi almaq həvəsinə düşürlər. Onların bir qismi oxuyub imtahan verir və vəsiqəni əldə edir. Amma bu o demək deyil ki, onların hər biri bu vəsiqədən istifadə edir. Bu statistika ilə məsələyə yanaşsaq, hər il sıralarımıza 50 mindən çox sürücü qoşulsa, Azərbaycanda ciddi tıxac problemi yaranar. Paytaxtın küçələrində tıxac əlindən tərpənmək olmaz. Həmçinin bu, nəinki paytaxtda, bölgələrdə də ciddi tıxac problemi yarada bilər.

Statistikaya görə, Azərbaycanda qadın sürücülər xırda qəza və yol pozuntusu hallarına kişilərə nisbətən daha çox yol versələr də, ağır yol-nəqliyyat hadisələrini daha az törədirlər. DİN Baş Dövlət Yol Polis İdarəsindən verilən məlumatda bildirilir ki, Azərbaycanda qadın sürücülər daha çox yüngül toqquşmalara düşürlər. Ağır qəzalarda hələ də kişilər liderlik edirlər. Kişi sürücülər ən çox sürət həddini aşmağa və ötmə qaydalarını pozmağa meyllidirlər. Qadınlar isə manevr və sıranı dəyişərkən xətaya yol verirlər. Təəssüf ki, bəzi hallarda avtomobili sərxoş vəziyyətdə idarə edən qadın sürücülərə də rast gəlmək olur.

### Avtoxuliqanları cəzalandıraq, ya..?

Amma xüsusən də son illər Azərbaycanda gənc sürücülərlə bağlı daha çox yaylan fikir onların avtoxuliqanlıqlarıdır. Paytaxtda və iri şəhərlərdə gənclərin avtoxuliqanlığa meyli ilə bağlı çoxsaylı faktlar, görüntülər mövcuddur. Onlara qarşı mübarizə necə aparılmalıdır?

**Hüquqşünas Ərşad Hüseynov öz müəllif məqaləsində qeyd edib ki, avtoxuliqanlığa görə cinayət məsuliyyəti müəyyən etmək əvəzinə aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə bu nalayiq hərəkətin qarşısını almaq olar:** "**1.** Avtoxuliqan kimi inzibati məsuliyyətə cəlb olunan şəxslərə havadarlıq edilməsinin yolverilməz olduğu belə şəxslərin himayədarlarının, xüsusən də dövlət məmurlarının diqqətinə çatdırılsın, hər bir avtoxuliqanlıq faktı üzrə İXM-in 296-1-ci maddəsində nəzərdə tutulan məsuliyyətin, xüsusən sürücülük hüququnu məhdudlaşdırmanın tətbiqinin qaçılmazlığı təmin edilsin.

**2.** DYP orqanlarında və polisin digər xidmətlərində avtoxuliqanlığa görə məsuliyyətə cəlb edilən şəxslər və onların avtomobilləri xüsusi əməliyyat-profilaktik uçota götürülsün, həmin avtomobillər yollarda göründükdə dərhal kim tərəfindən idarə olunduğu yoxlanılsın, belə şəxslərin sürücülük hüququ olmadan nəqliyyat vasitələrini idarə etməsi faktları aşkar edildikdə İXM-in 152.3-cü maddəsi üzrə məsuliyyətə cəlb edilmələri təmin edilsin.

**3.**Avtoxuliqanlığa yol vermiş gənclərin valideynləri ilə, habelə iş və ya təhsil yerində rəhbərliyi ilə söhbətlər edilsin, bu gənclərin öz əməllərindən çəkindirilməsində həmin şəxslərin köməyindən istifadə edilsin və s.

Apardığım müşahidələr göstərir ki, bu əmələ yol verən gənclərin əksəriyyəti ictimai təhlükəsizlik və ictimai qayda haqqında primitiv təsəvvürə malik, əksər hallarda dünyagörüşü və mədəni səviyyəsi aşağı olan, bəzən ailə tərbiyəsində problemlər yaşamış ekstremal davranışa meylli şəxslərdir. Həmin şəxslərə, bir tərəfdən, belə davranışın kifayət qədər təhlükəli və mənasız olduğunu izah etməklə, digər tərəfdən isə onların ekstremal vəziyyətlər həvəsini daha müvafiq istiqamətə yönəltməklə də avtoxuliqanlığı tam nəzarətdə saxlamaq olar (məsələn, belə gəncləri paraşütçü kurslarına, alpinist qruplarına cəlb etmək olar). Unutmayaq ki, tərbiyəsində və mədəni səviyyəsində problem olan şəxsləri dəmir barmaqlıqlar arxasına göndərmək yox, tərbiyə etmək lazımdır.

Bir daha vurğulamaq istəyirəm ki, avtoxuliqanlığa görə cinayət məsuliyyəti müəyyən etmək bu problemin həllini vəd etmir. Əksinə, bu, yeni məzmunlu problemlər doğuracaqdır".

## Artıq yükə görə cərimələr artırıldı




**İriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin normadan artıq yüklənməsinə görə cərimələr artırılıb. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunda öz əksini tapıb.**

Dəyişikliyə əsasən, iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit parametrlərinə dair tələbləri pozmaqla (eni üzrə 0,15 metr və daha artıq, uzunluğu üzrə 0,20 metr və daha artıq, hündürlüyü üzrə 0,20 metr və daha artıq) ümumi istifadədə olan avtomobil yollarında idarə edilməsinə görə fiziki şəxslər 200 manat məbləğində cərimə ediləcək.

İriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini aşmaqla (icazə verilən ümumi kütlə və ya oxa düşən yükün kütləsi üzrə 5 faiz və daha artıq) ümumi istifadədə olan avtomobil yollarında idarə edilməsinə görə fiziki şəxslər 600 manat məbləğində cərimə ediləcək.

Həmin xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə fiziki şəxslər 1 200 manat məbləğində cərimələnəcək.

Digər dəyişikliklə iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini aşmaqla ("(eni üzrə 0,15 metr və daha artıq, uzunluğu üzrə 0,20 metr və daha artıq, hündürlüyü üzrə 0,20 metr və daha artıq, icazə verilən ümumi kütlə və ya oxa düşən yükün kütləsi üzrə 5 faiz və daha artıq)) yüklənməsinə görə vəzifəli şəxslər 1 500 manat məbləğində, hüquqi şəxslər 4 000 manat məbləğində cərimə olunacaq.

Həmin xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə vəzifəli şəxslər 2 500 manat məbləğində, hüquqi şəxslər 7 000 manatadək məbləğdə cərimələnəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
Son səhifə
N 129 (8503) 25 iyul 2024
İyul

# Rusiyada Dubay şahzadəsinin nadir avtomobili satışa çıxarılıb



**Rusiyada Dubay şahzadəsi üçün hazırlanmış uzadılmış təkər bazasına malik 1962-ci ilin "Bentley S2" avtomobili satışa çıxarılıb.**

Satıcı maşını 50 milyon rubla (965 min manat) satır. O iddia edir ki, Dubay şahzadələrindən birindən sonra avtomobili Las-Veqasdakı kazinonun sahibi alıb və 2005-ci ildə nadir "Bentley" Rusiyaya gətirilib. Avtomobilə 6.2 litr həcmli və 200 at qüvvəsinə malik orijinal V8 mühərriki, həmçinin dördpilləli avtomatik transmissiya quraşdırılıb. 2015-ci ildə avtomobil bərpa olunub, 2020-ci ildə isə əyləc sistemi dəyişdirilib. 62 yaşlı "Bentley"nin odometrində təxminən 78 min mil (125,5 min km) məsafə qeyd olunub.

Xatırladaq ki, "Bentley S2" 1959-1962-ci illərdə Britaniya avtomobil istehsalçısı tərəfindən istehsal edilib. Avtomobil 2,3 min nüsxədə buraxılıb, lakin onlardan yalnız 57-si uzadılmış təkər bazası ilə olub.

## Sağlam dəri üçün lazım olan vitaminlər hansılardır?



**"Sağlam dəri üçün A, E və C vitaminləri lazımdır". Bu sözləri rusiyalı terapevt Olqa Çirkova News.ru-ya müsahibəsində bildirib. Onun sözlərinə görə, A vitamini dərinin bərpasına kömək edir və yeni hüceyrələrin yaranmasına kömək edir, o, heyvanların qaraciyərində və yumurta sarısında olur. B vitaminləri isə ağızın küncləri də daxil olmaqla soyulmanın qarşısını alır, buna görə də sıyıq və buğda çörək yemək vacibdir.**

Həkim bildirib ki, vitamin E dərini ultrabənövşəyi şüaların və sərbəst radikalların zərərli təsirlərindən qoruyur, eyni zamanda onkoprotektor kimi fəaliyyət göstərir: "Onu badam, fındıq, günəbaxan tumları, avokado, ispanaq, kivi, manqo, zeytun yağında, həmçinin qızılbalıq və tuna balıqlarında tapmaq olar".

"C vitamini də vacibdir, çünki o, kollagenin istehsalını stimullaşdırır, yeni dərini möhkəm və elastik edir. Bundan əlavə, kuperoz ilə mübarizə aparan kapilyar divarların vəziyyətini yaxşılaşdırır. Bu güclü antioksidant sitrus meyvələrində, çiyələkdə, kividə, bolqar bibərində, pomidorda, Brüssel kələmində, brokkolidə, ispanaqda, cəfəridə, həmçinin qara qarağatda və itburnuda olur", - deyə Çirkova qeyd edib.

Terapevtin sözlərinə görə, D vitamini dərinin gözəlliyinə də töhfə verə bilər, bu da endokrin sisteminin normallaşdırılmasında iştirak edir və toxumaların normal böyüməsini və sağalma proseslərini təşviq edir: "O, ultrabənövşəyi şüaların təsiri altında dəridə əmələ gəlir və yağlı balıqların qaraciyərindən, kürü, süd məhsulları, yumurta sarısı ilə qidalanır".

## Bütün zamanların ən gözəl qadınının adı açıqlandı



**Bütün zamanların və xalqların ən gözəl aktrisalarının reytinqi dərc edilib.**

Oxu.Az xəbər verir ki, siyahını "ListChallenges" portalı dərc edib.

İstifadəçilərin əksəriyyəti italyan model və aktrisa Monika Belluççiyə səs verib.

Ulduz sözügedən reytinqdə ötən əsrin 50-ci illərinin aktrisası Merilin Monronu, eləcə də Hollivud ulduzu Ancelina Colini geridə qoyub. Dördüncü yerdə 20-ci əsrin digər bir ulduzu Ceyn Mensfild qərarlaşıb. İlk beşliyi "Eramızdan milyon il əvvəl" filmi ilə tanınan Rakel Uelç tamamlayıb.

Qeyd edək ki, siyahıda Bricit Bardo, Qreys Kelli, Elizabet Teylor, Natali Portman da daxil olmaqla, bir çox məşhurlar yer alıb. Siyahıda ümumilikdə 100 ad var, aktrisa Helena Bonem Karter isə sonuncu yerdədir.

## Bu dərmanlar insanları kor edir

**Alimlər aşkar ediblər ki, adi dərmanlar orqanizm üçün ciddi təhlükə yaradır. Aparılan son elmi araşdırmada Harvard Universitetinin alimləri semaqlutid ehtiva edən arıqlamaq üçün istifadə olunan dərmanların ciddi yan təsirləri barədə xəbərdarlıq ediblər. "Ozempic" və "Vegovi" kimi dərmanlarda istifadə edilən bu tərkib hissəsi ani və geri dönməz görmə itkisinə səbəb ola biləcək arterial olmayan anterior işemik optik neyropatiyanın (NAION) inkişaf riskini artıra bilər.**

Tədqiqat Bostondakı həkimlərin bir həftə ərzində semaqlutid qəbul edən xəstələrdə üç görmə itkisi halını bildirməsindən sonra aparılıb. 16,827 xəstənin tibbi qeydlərinin təhlili, bu dərmanı qəbul etmək ilə NAION-un inkişafı arasında, xüsusən də tip 2 diabet və piylənmə olan insanlar arasında əhəmiyyətli bir əlaqə olduğunu göstərib.

Massaçusets Ümumi Xəstəxanasının neyro-oftalmoloqu Cozef Rizzo bu dərmanları təyin edərkən NAION-un potensial risklərini xəstələrlə müzakirə etməyin vacibliyini vurğulayıb.

2017-ci ildə FDA tərəfindən şəkərli diabetin müalicəsi üçün təsdiq edilmiş Semaglutide arıqlamaq üçün də geniş istifadə olunur. O, qanda qlükoza səviyyəsini aşağı salmağa kömək edən incretin GLP-1-in hərəkətini təqlid edir. Bununla belə, Beynəlxalq Diabet Federasiyasına görə, diabet və piylənmə olan insanların çoxluğunu nəzərə alaraq, NAION riski milyonlarla insana təsir edə bilər.

## Bunları bilirsinizmi?

- Qayçını Leonarda Da Vinçi icad edib.
- Kəpənəklərin dad resptorları ayaqlarında olur.
- Dünyada toyuqların sayı insanların sayından çoxdur.
- Hər 2 həftədən bir mədəmiz yeni daxili təbəqə yaratmalıdır, yoxsa o özü özünü həzm edər.
- Qadınlar gözlərini kişilərdən iki dəfə çox qırpır.
- Dolları 293 üsulla xırdalamaq olar.
- Anadan olandan ölənə qədər gözlərimiz eyni ölçüdə qalır, qulaqlarımız və burnumuz isə həmişə böyüyür.
- Pişiklər 100-dən çox, itlər isə cəmi 10 səs çıxardırlar.
- Tədqiqatçı radiolokator borusunun yanından keçərkən cibində olan şokoladların əriməsindən sonra mikrodalğalı sobanı icad edib.
- Soğan doğradığınız zaman gözünüzün yaşarmasını istəmirsinizsə, saqqız çeynəyin.
- İnsanın saçı üç kilo ağırlıq qaldıra biləcək gücdədir.
- Ölüm anında toxunma və görmə hissindən sonra eşitmə bacarığı itirilir. Ürək dayandıqdan sonra insan beyni 2 dəqiqə boyunca səslər qəbul edilə bilir.
- Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
- İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
- Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
- Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
- İnsan ildə ən az 1460 ədəd yuxu görür.

## 2024-cü ilin ən yaxşı elektrik avtomobillərinin reytinqi açıqlanıb



**Avtomobillərin keyfiyyətinin yeni reytinqini dərc edib. Bu dəfə mütəxəssislər 2024-cü ilin ən yaxşı elektrik avtomobillərini müəyyən ediblər.**

Oxu.Az istehlakçı araşdırmaları üzrə ixtisaslaşmış "Amerikanın Consumer Reports" nəşrinin saytına istinadən xəbər verir ki, test edilən 50 elektromobildən yalnız 14-ü tövsiyə edilənlər siyahısına daxil olub. Onların arasında 2024-cü ilin həm kütləvi, həm də premium elektrik avtomobilləri var və siyahının əsas lider mövqelərində "Hyundai-KIA" konserninə məxsus avtomobillər yer alıb.

Reytinqdə mütləq qalib 100 mümkün baldan 98 xal toplayan "KIA EV9" elektrik krossoveri olub. Bu reytinqdə ikinci yeri premium elektrik krossoveri seqmentinin qalibi "BMW iX" tutub.

***2024-cü ilin ən yaxşı premium elektrik krossoverləri:***

**1.** "BMW iX" - 84 xal;
**2.** "Genesis GV60" - 75;
**3.** "Lexus RZ" - 74;
**4.** "Audi Q4 e-tron" - 71;
**5.** "Audi Q8 e-tron" - 70.

Kütləvi elektrik krossoverləri arasında lider "Tesla Model Y"ı "KIA EV6" qabaqlayıb.

***2024-cü ilin ən yaxşı elektrik krossoverləri:***

**1.** "KIA EV6" - 77 xal;
**2.** "Tesla Model Y" - 72;
**3.** "KIA Niro Electric" - 71;
**4.** "Nissan Ariya" - 70;
**5.** "Ford Mustang Mach-E" - 70.

Kütləvi istehsal edilən minik elektrik avtomobilləri arasında "Hyundai Ioniq 6" (83 xal), premium avtomobillər arasında isə "BMW i4" (83 xal) və "Porsche Taycan" (76 xal) qeyd edilib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.